AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARI KONFEDERASİYASI

# ülfət

AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARININ QƏZETİ

QƏZET 1991-Cİ İLDƏN ÇIXIR

CÜMƏ AXŞAMI, 21 OKTYABR 2021-Cİ İL / № 39 (1257)

WWW.ULFET-AZ.COM / ULFET-AZ@MAIL.RU

## *Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli rayonunda səfərdə olublar*



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 17-də Füzuli rayonunda səfərdə olublar.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Füzuli-Ağdam avtomobil yolunun, işğal zamanı dağıdılmış Füzuli rayonunun Dövlətyarlı kəndində yeni "ağıllı kənd"in və "Azərişıq" ASC-nin Füzuli şəhərində Rəqəmsal Yarımstansiya İdarəetmə Mərkəzinin təməllərini qoyub.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli Beynəlxalq Hava Limanında yaradılan şəraitlə tanış olublar.

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli Mərkəzi Şəhər parkında yaradılacaq şəraitlə tanış olublar, burada ağac əkiblər. Dövlətimizin başçısı ilk yaşayış binalarının təməlini qoyub.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüblər.

**Daha sonra dövlətimizin başçısı Füzuli Memorial Kompleksinin və Füzuli şəhərinin təməl daşını qoyub.**



## Müstəqilliyin bərpasının 30-cu ildönümü münasibətilə

## *Azərbaycan xalqına müraciət*

***Əziz həmvətənlər!***

**Sizi xalqımızın dövlətçilik ənənələrinin yenidən dirçəldilməsinin - müstəqilliyimizin bərpa edilməsinin 30-cu ildönümü münasibətilə ürəkdən təbrik edirəm.**

1991-ci il oktyabrın 18-də Azərbaycan XX əsrdə ikinci dəfə müstəqilliyə qovuşmaq imkanı qazanmış, "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı ilə özünün Azərbaycan Xalq Cümhuriyyətinin varisi olduğunu dünyaya bəyan etmişdir.

Azərbaycan müstəqilliyinin ilk illərində çoxsaylı təhlükələrlə üzləşmiş, ağır sınaqlardan keçmişdir. Daxili çəkişmələr, dövlət idarəçiliyindəki özbaşınalıq və səriştəsizlik, ağır siyasi və iqtisadi böhran ölkəni vətəndaş müharibəsi astanasına gətirmiş, onun gələcək taleyini sual altına qoymuşdu. Məhz bu şəraitdə Azərbaycan torpaqları Ermənistan silahlı qüvvələri tərəfindən işğala məruz qalmış, yüz minlərlə soydaşımız öz dədə-baba yurdlarından didərgin düşmüşdür. Baş verənlər bir daha göstərmişdir ki, həqiqi müstəqilliyi qoruyub saxlamaq onu əldə etməkdən qat-qat çətindir.

**Azərbaycan tarixinin bu ağır dönəmində Ulu Öndər Heydər Əliyev xalqın tələbi ilə hakimiyyətə qayıtdı. Yalnız bundan sonra müstəqilliyin yenidən itirilməsi təhlükəsinin qarşısı alındı. Qısa müddətdə ölkəmizin müstəqil daxili və xarici siyasət strategiyasının təməl prinsipləri müəyyən olundu, ictimai-siyasi sabitlik, dövlət intizamı təmin edildi, demokratik islahatların həyata keçirilməsinə və ordu quruculuğu prosesinə başlanıldı. Azərbaycan gələcək taleyi baxımından həlledici rola malik "Əsrin müqaviləsi"ndə iştirakı ilə dünyanın enerji xəritəsində xüsusi mövqe qazandı, qlobal iqtisadi mühitə inteqrasiya proseslərinə qoşularaq gələcək müvəffəqiyyətlərinə yol açan cəsarətli addımlar atdı.**

Ölkəmiz bu gün nəhəng regional və qlobal layihələrin təşəbbüskarı və fəal iştirakçısıdır. Azərbaycan özünün milli maraqları əsasında müstəqil xarici siyasət yürüdür və dünya miqyasında etibarlı tərəfdaş kimi tanınır. Son illər ərzində iqtisadiyyatımızın həcmi üç dəfədən çox artmış, güclü iqtisadi infrastruktur yaradılmış, mədəni irsimizin qorunması, inkişafı və təbliğində, təhsil, səhiyyə və digər sosial sahələrdə ciddi uğurlar əldə edilmiş, insanlarımızın maddi rifahı əhəmiyyətli dərəcədə yaxşılaşmışdır. Torpaqlarının iyirmi faizinin 30 ilə yaxın işğal altında qalmasına, bir milyondan artıq qaçqın və məcburi köçkününün olmasına baxmayaraq, Azərbaycan məqsədlərinə doğru daim inamla irəliləmiş, öz hədəflərindən yayınmamışdır.

**Uzun illər ərzində Azərbaycanın hərtərəfli inkişafı üçün rəhbər tutulan strateji xəttin, ölkəmizin daha da güclənməsi üçün görülən fasiləsiz işlərin məntiqi nəticəsi isə tarixi ədalətin bərqərar olması - Vətənimizin ərazi bütövlüyünün təmin edilməsi olmuşdur. Rəşadətli ordumuz döyüş meydanında həqiqi qəhrəmanlıq və vətənpərvərlik nümayiş etdirərək cəmi 44 gündə torpaqlarımızı işğaldan qurtarmışdır. Azərbaycan xalqının apardığı Vətən müharibəsi Ermənistanın kapitulyasiya aktını imzalaması ilə nəticələnmişdir. Azərbaycanın Vətən müharibəsindəki Zəfəri regionumuzda yeni reallıqlar yaratmışdır. Tarixi Qələbəmiz həm ölkəmizin, həm də bütövlükdə regionun inkişafında yeni dövrün başlanğıcıdır.**

Bizə Zəfər bəxş etmiş bütün igid oğullarımıza bir daha minnətdarlığımızı bildirir, Vətənimizin ərazi bütövlüyü naminə canlarından keçmiş şəhidlərimizin əziz xatirəsini ehtiramla yad edirik.

***Hörmətli həmvətənlər!***

**Mənim təşəbbüsümlə irəli sürülmüş qanun layihəsinin qəbul olunması ilə bu ildən etibarən 18 Oktyabr ölkəmizdə Müstəqilliyin Bərpası Günü kimi qeyd ediləcəkdir. Bu gün biz 30 illik müstəqillik tariximizdə ilk dəfə olaraq müstəqilliyimizin bərpasının ildönümünü ərazi bütövlüyünü təmin etmiş qalib xalq kimi qarşılayırıq. Yaxın tariximizin bu əlamətdar hadisəsi münasibətilə bütün Azərbaycan xalqını bir daha ürəkdən təbrik edir, ən xoş arzularımı yetirirəm.**

**Müstəqilliyimiz əbədidir, dönməzdir, sarsılmazdır!**

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 18 oktyabr 2021-ci il**



## *Zabit və əsgərlərimizin xidmətləri dövlət tərəfindən həmişə yüksək qiymətləndirilir*

**"Vətən müharibəsində ilk gündən Azərbaycan Ordusu Füzuli rayonu istiqamətində böyük uğurlar əldə etdi. Ardıcıl olaraq rayonun kəndləri işğaldan azad olunmağa başladı. Baxmayaraq ki, düşmən 30 ilə yaxın müddət ərzində burada xeyli möhkəmlənmişdi, güclü istehkamlar qurmuşdu və "keçilməz" adlandırırdı. Amma Ordumuz bir həmlə ilə həmin müdafiə xəttini yardı və sürətlə irəliləməyə başladı. Təbii ki, bu uğurlar silahlı qüvvələrimizin peşəkarlığını, yenilməzliyini göstərir. İnsanlarımız kəndlərin, hətta bundan da kiçik yaşayış məntəqələrimizin azad olunmasını böyük sevinclə qarşılayırdı. Lakin rayon mərkəzlərinin, şəhərlərin işğaldan azad olunması xalqda xüsusi əhval-ruhiyyə yaradır, bir-birilərini təbrik edirdilər. Cəbrayıldan sonra Füzuli şəhərinin azad olması xalqda qələbəyə olan sarsılmaz inamı daha da artırdı, zəfər yolumuzda növbəti hədəflərimiz üçün son dərəcə önəmli rol oynadı".**

BAX SƏHİFƏ: 3

## Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri S.S. Möhbalıyevə

***Hörmətli Səttar Suliddin oğlu!***

**Sizə "Rusiyada və dünyada sosial-əmək münaqişələri" mövzusunda keçirilmiş 6-cı Beynəlxalq elmi-praktik konfransda fəal iştirakınıza və dərin məzmunlu çıxışınıza görə tədbirin Təşkilat Komitəsi və Sankt- Peterburq Humanitar Universitetin Sosial-Əmək Münaqişələrinin Təhlili və Monitorinqi Mərkəzi adından təşəkkürümü bildirirəm.**

Tədbir iştirakçılarının çıxışları konfransın materialları əsasında hazırlanacaq məcmuəyə daxil ediləcək. Həmin materiallar **industrialconflicts.ru** saytında dərc olunacaq.

Biz Sizinlə gələcəkdə də əməkdaşlıq edəcəyimizə ümidvarıq. Sizi bu mövzuda 2022-ci ilin oktyabr ayında keçirilməsi nəzərdə tutulmuş növbəti - 7- ci konfransa dəvət edirəm.

**E. İ. MAKAROV,**
**Rusiya Müstəqil Həmkarlar İttifaqları Federasiyasının sədr müavini,**
**Konfransın Təşkilat Komitəsinin sədri**

*Peşə təhsil sistemində yenilik müasir çağırışlara cavab verəcək*



BAX SƏHİFƏ: 6



*Azərbaycanda keyfiyyətli internet infrastrukturu yetərincə inkişaf etməyib*

BAX SƏHİFƏ: 6

**Tarif (qiymət) Şurasının növbəti iclası keçirilib**

BAX SƏHİFƏ: 4

**Hüquq məsləhətxanası**



BAX SƏHİFƏ: 8

**Həmkarlar ittifaqına üzv ol - iş yerinə təminat al!**

*(Əmək Məcəlləsinin 80-ci maddəsinə əsasən, işəgötürən həmkarlar ittifaqı üzvünü bu təşkilatın razılığı olmadan işdən azad edə bilməz)*

*Beynəlxalq*

**"Aydın və yüksək səslə demək istəyirik: *həmkarlar ittifaqı kor deyil*"**

BAX SƏHİFƏ: 7

## COVID-19 infeksiyasına son sutkada 2303 yoluxma faktı qeydə alınıb




**Azərbaycanda yeni növ koronavirus (COVID-19) infeksiyasına son sutkada 2303 yoluxma faktı qeydə alınıb, 1010 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan verilən məlumata görə, analiz nümunələri müsbət çıxan 16 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 507 min 857 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 480 min 685 nəfər müalicə olunaraq sağalıb, 6 min 809 nəfər vəfat edib. Aktiv xəstə sayı 20 min 363 nəfərdir.

**Son sutkada yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 12 min 75, bu günə qədər isə ümumilikdə 5 milyon 56 min 819 test icra olunub.**

# "Füzuli şəhərinin azad edilməsi bizə əlavə mənəvi güc verdi"

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 17-də Füzuli rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb, Memorial Kompleksin və şəhərin bərpasının təməl daşını qoyublar.**

**AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı görüşdə çıxış edib.**






### *Prezident İlham Əliyevin çıxışı*

**-Əziz dostlar, əziz füzulililər, sizi səmimiyyətlə salamlayıram, "Füzuliyə xoş gəlmisiniz" deyirəm. Biz azad edilmiş torpaqlarda bu gün Füzulinin işğaldan azad olunmasının birinci ildönümünü qeyd edirik. Düz bir il bundan əvvəl şanlı Azərbaycan Ordusu Füzuli şəhərini və bir neçə kəndi işğalçılardan azad edib, Azərbaycan bayrağı qaldırılıb və beləliklə, uzun fasilədən sonra Azərbaycan dövləti bu ərazilərdə öz suverenliyini təmin etdi. Bu, tarixi hadisədir. Əminəm ki, 17 oktyabr günü Azərbaycan xalqının çoxəsrlik tarixində xüsusi yer tutacaq. Çünki məhz oktyabrın 17-də bizim böyük şəhərimiz Füzuli işğalçılardan azad edildi. İkinci Qarabağ müharibəsində şəhid olmuş bütün şəhidlərimizə Allahdan bir daha rəhmət diləyirəm. Onların fədakarlığı, qəhrəmanlığı sayəsində biz tarixi ədaləti bərpa etdik. Azərbaycan Silahlı Qüvvələri 44 günlük müharibə zamanı əsl vətənpərvərlik və qəhrəmanlıq göstərmişdir. Azərbaycan Ordusu düşmənin canlı qüvvəsini, texnikasını məhv edərək tarixi ədaləti bərpa etdi və Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdi.**

Müharibə zamanı Füzulinin azad olunmasının çox böyük əhəmiyyəti var idi, çünki böyük yaşayış məntəqəsi idi. Cəbrayıldan, Hadrutdan sonra üçüncü böyük yaşayış məntəqəsi işğalçılardan azad edildi. Füzuli uğrunda çox şiddətli döyüşlər gedirdi, bir neçə gün ərzində şəhərin ətrafında çox ciddi əməliyyatlar aparılırdı. Düşmən müqavimət göstərirdi, amma buna baxmayaraq, Azərbaycan Silahlı Qüvvələri öz tarixi missiyasını yerinə yetirdi. Mən Füzulinin azad olunması xəbərini Azərbaycan xalqına çatdıranda artıq Azərbaycan xalqı və hesab edirəm, bütün dünya gördü ki, biz öz şərəfli missiyamızı sona qədər yerinə yetirəcəyik, heç bir qüvvə bizi dayandıra bilməz.

Füzuli şəhərinin azad olunmasının əhəmiyyəti, eyni zamanda, bu şəhərin strateji yerləşməsi ilə bağlıdır. Füzuli nəzarətimizə keçəndən sonra artıq Şuşa istiqamətinə getmək üçün daha geniş imkanlar açıldı. Bir daha demək istəyirəm ki, Ermənistan tərəfi burada çox güclü istehkamlar qurmuşdu, bir neçə xətt istehkamdan ibarət müdafiə xətti qurulmuşdu. Otuz il ərzində düşmən burada möhkəmlənirdi və bu istehkamları yarmaq, keçmək xalqımızın bir daha böyük qəhrəmanlığını, fədakarlığını göstərmişdir. Təbii ki, bunu görən düşmənin gözü qorxdu. Gördülər ki, bizim əsgər-zabitlərimiz doğma torpaqları azad etmək üçün ölümə getməyə hazırdırlar. Bu istehkamları canı-qanı bahasına keçmiş qəhrəman əsgər-zabitlərimiz düşmənə Azərbaycan xalqının böyüklüyünü bir daha göstərdi. Təsadüfi deyil ki, Füzuli azad olunandan sonra Ermənistan ordusunda fərarilik halları daha geniş vüsət aldı. Düşmən gördü ki, bizim qabağımızda dura bilməyəcək, düşmən gördü ki, artıq bizim önümüz açıldı, digər şəhər və rayonlarımızın azad edilməsi məsələsi qaçılmazdır.

**Füzuli şəhərinin azad edilməsi bizə əlavə mənəvi güc verdi. Azərbaycan Silahlı Qüvvələri bundan sonra böyük əzmkarlıq göstərərək xilaskarlıq missiyasını uğurla davam etdirdi. Füzuli azad olunandan 3 gün sonra Zəngilan şəhəri azad edildi, ondan beş gün sonra Qubadlı, ondan sonra biz Laçın dəhlizinə çıxdıq və beləliklə, müharibənin taleyi heç kəs üçün sirr deyildi.**

Biz öz torpaqlarımızı azad etməli idik. Mən işğal dövründə bu məsələ ilə bağlı Azərbaycan xalqına dəfələrlə müraciət edərək və keçmiş köçkünlərlə görüşlər əsnasında deyirdim ki, nəyin bahasına olursa-olsun, torpaqlarımızı azad etməliyik. Onu da deyirdim ki, əgər lazım olsa, biz güc tətbiq etməklə öz torpaqlarımızı geri qaytaracağıq. Belə də oldu. Həm işğal dövründə, həm müharibə dövründə bütün təzyiqlərə, bütün bəyanatlara baxmayaraq, bizim qabağımızda heç bir qüvvə dayana bilmədi. Biz Ermənistan ordusunu darmadağın etdik, erməni mifologiyasına son qoyduq, bütün dünyaya sübut etdik ki, "yenilməz Ermənistan ordusu" nəyə qadirdir və bütün dünyaya xalqımızın böyüklüyünü nümayiş etdirdik. Bu şanlı Qələbə çoxəsrlik Azərbaycan tarixində əbədi yaşayacaqdır.

Onu da deməliyəm ki, bizim uğurlu əməliyyatlarımız məhz Füzuli rayonundan başlamışdır. Müharibənin ilk günündə - sentyabrın 27-də Füzulinin Qaraxanbəyli, Qərvənd, Kənd Horadiz, Yuxarı Əbdürrəhmanlı kəndləri və Cəbrayılın Böyük Mərcanlı və Nüzgar kəndləri azad edildi. Yəni, biz öz Zəfər missiyamızı məhz Füzuli rayonundan başlamışıq.

**Bu gün Füzulidə olarkən hər kəs erməni vəhşiliyinin təzahürlərini görür. Çünki Füzuli ən çox dağıntılara məruz qalmış rayondur. Bir dənə salamat kənd yoxdur, bir dənə salamat bina yoxdur. Füzuli şəhəri tamamilə yerlə-yeksan edilib. Siz yaxşı xatırlayırsınız, Azərbaycan xalqı yaxşı xatırlayır, Füzuli azad olunandan sonra bir bina tapılmadı ki, biz oraya bayrağımızı sancaq. Bayrağımız hərbi hissənin həyətində dirəkdə qaldırılmışdı. Buraya gələn hər bir insan erməni vəhşiliyini, erməni vandallığını görür və bunu artıq heç kim inkar edə bilməz. Təsadüfi deyil ki, ermənilər işğal dövründə buraya heç kimi buraxmırdılar, hətta beynəlxalq təşkilatların nümayəndələrini də buraxmırdılar. Düzdür, işğal dövründə Minsk qrupunun nümayəndələri iki dəfə faktaraşdırıcı missiya ilə bu bölgələrə gəlmişdilər və müvafiq məruzələr hazırlanmışdı. O məruzələrdə göstərilirdi ki, düşmən burada böyük vandallıq törədib. Ancaq bu dərəcədə dağıntıları heç kim təsəvvür edə bilməzdi. Bu, erməni faşizminin eybəcər üzüdür, bütün dünya bunu görür və görməlidir. Artıq minlərlə insan, həm Füzuli sakinləri, eyni zamanda, xarici diplomatlar, siyasətçilər, jurnalistlər azad edilmiş torpaqlara gəlib ilə erməni vəhşiliyini öz gözləri görürlər.**

Biz Füzuli şəhərini və Füzuli rayonunun kəndlərini bərpa edəcəyik. Ötən bir il ərzində bu istiqamətdə böyük işlər görülüb. Azad edilmiş bütün torpaqlarda həyat bərpa olunacaq, vətəndaşlar öz doğma ocaqlarına qayıdacaqlar. Bu bir il ərzində biz çox genişmiqyaslı quruculuq işləri ilə, eyni zamanda, şəhər və kəndlərimizin bərpası ilə də məşğul olmuşuq. Bu proses çox mürəkkəbdir. Burada düzgün planlaşdırma aparılmalı, minalardan təmizləmə işləri görülməlidir. Füzuli azad edilmiş rayonlar arasında minaların sayına görə ən çox çirkləndirilmiş rayondur - yüz mindən çox mina basdırılıb. Biz bütün bu işləri paralel şəkildə aparmalıyıq. Eyni zamanda, Füzuli şəhərinin baş planı, kəndlərin inkişaf konsepsiyası hazırlanıbdır. Birinci infrastruktur layihələri də məhz Füzulidə başlamışdır.

İşğal dövründə mən Füzuli rayonunun bizdə olan hissəsinə, ərazilərinə dəfələrlə gəlmişdim, 12 dəfə Füzuli rayonunda olmuşdum. Rayonun inkişafı ilə bağlı çox böyük işlər görüldü. Horadiz qəsəbəsinə şəhər statusu verildi və Horadiz Füzuli rayonunun qeyri-rəsmi mərkəzi müəyyən edilmişdir. Böyük sosial infrastruktur layihələri icra edildi - 24 məktəb, 2 xəstəxana, Olimpiya İdman Kompleksi, Gənclər Mərkəzi, Tarix-Diyarşünaslıq Muzeyi, Muğam Mərkəzi tikildi. İnfrastrukturla bağlı çox böyük işlər görülmüşdür. Fərdi evlərin bərpası işləri görülmüşdür. Yəni, Füzuli rayonunun inkişafı ilə bağlı çox genişmiqyaslı işlər aparılırdı. Qeyd etdiyim kimi, 12 dəfə Füzulidə olmuşam. Burada köçkünlərlə görüşərək hər zaman onlara deyirdim ki, Füzuli şəhəri və rayonun qalan hissəsi azad olunandan sonra biz daha yaxşı evlər tikəcəyik, daha gözəl şərait yaradacağıq və siz qayıdacaqsınız. Bu gün artıq bunu hər kəs görə bilir. Çünki Füzuli rayonunda artıq icra edilən layihələr bizim həm niyyətimizi, həm potensialımızı göstərir. Cəmi 8 ay ərzində Füzuli Beynəlxalq Hava Limanı inşa edilib. Bu gün hazır hava limanı ilə tanış olarkən mən bir daha gördüm ki, bəlkə də dünya praktikasında, dünya tarixində bu qısa müddət ərzində, minalanmış ərazidə beynəlxalq hava limanları tikilməmişdir. Biz Füzulidən Şuşaya elektrik xətləri çəkdik. Çünki Şuşa azad olunandan sonra mənfur düşmən bütün elektrik xətlərini kəsib, hətta su xəttini də partlatmışdır və Şuşa işıqsız qalmışdır, özü də qış aylarında. Ona görə çətin şəraitdə Füzulidən Şuşaya elektrik xətləri çəkildi. Füzulidə yarımstansiya açıldı və ikinci yarımstansiyanın təməli bu gün qoyulmuşdur.

Yollarla bağlı. İndi siz gələndə yeni yoldan istifadə etdiniz. Görürsünüz, biz bu yolları qısa müddət ərzində çəkdik. Biz hətta Şuşaya qədər Zəfər yolunu çəkdik və indi Füzuli-Şuşa magistral yolunun çəkilişi gedir. Hazırda Füzuli-Hadrut, Füzuli-Cəbrayıl, Füzuli-Ağdam yollarında işlər gedir. Bu gün Füzuli-Ağdam istiqamətində yeni yolun təməli qoyuldu. Eyni zamanda, Ağdama gedən qonaqlar, vətəndaşlar Füzuli Beynəlxalq Hava Limanından istifadə edə bilərlər. Yəni, Füzuli Beynəlxalq Hava Limanı Qarabağın hava qapısıdır.

Bütün bu işləri görərək biz bir məqsədi güdürdük ki, keçmiş köçkünləri tezliklə öz doğma torpaqlarına qaytaraq. Bu gün təməl daşının qoyulması mərasimlərində iştirak edərkən biz artıq bu günü də böyük dərəcədə yaxınlaşdırmışıq. Bu gün Dövlətyarlı kəndinin inkişaf konsepsiyası təsdiq edildi, təməli qoyuldu. "Ağıllı kənd" konsepsiyası əsasında Dövlətyarlı kəndində böyük yaşayış məntəqəsi yaradılacaq. Beş kəndi birləşdirən bu layihə, ümid edirəm ki, gələn ilin sonuna qədər keçmiş köçkünlərin sərəncamına veriləcək. Birinci mərhələdə 450 evin tikintisi nəzərdə tutulur. Ondan sonra əlavə 300 evin tikintisi nəzərdə tutulur və bu, Füzuli rayonunda birinci yaradılacaq yaşayış mərkəzi olacaqdır.

Bu gün Füzuli şəhərinin baş planı təqdim ediləcək. Artıq mənə bu baş plan təqdim edildi. Bu gün bərabər bu plana baxarıq. Bizim mütəxəssislərimiz bu plan üzərində uzun aylar ərzində işləyiblər. Bu gün biz hamımız bu layihə ilə bir daha tanış olarıq. Zəfər muzeyinin, İşğal muzeyinin təməli qoyulacaq.

**Füzuliyə həyat qayıdır və qayıdacaq. Əminəm ki, maksimum qısa müddət ərzində Füzuli şəhəri də, rayonun kəndləri də çiçəklənəcək. Biz azad edilmiş ərazilərdə ən müasir texnologiyaları tətbiq edirik. Bu, artıq reallıqdır. Bunu mən müharibə başa çatandan dərhal sonra bəyan etmişdim və bunu bu gün hər kəs görə bilir. Zəngilanda birinci kəndin inşası başa çatmaq üzrədir. Ağdam şəhərinin baş planı təsdiqləndi, işlərə start verildi. Cəbrayılın baş planı təsdiqləndi. Artıq göstəriş verildi və vəsait ayrıldı, digər şəhərlərimizin - Zəngilan, Qubadlı, Kəlbəcər və Laçının baş planları hazırlanır. Bütün bu işləri biz görəcəyik. Bildiyiniz kimi, heç kimdən asılı olmayaraq, öz vəsaitimiz hesabına, heç kimə müraciət etmədən, heç bir kredit götürmədən biz bu işləri görəcəyik.**

Bu işləri görmək üçün, əlbəttə ki, biz uzun illər işləmişik. Uzun illər həm torpaqlarımızı azad etmək üçün ordumuzu gücləndirmişik, həm postmüharibə dövründə quruculuq, bərpa işlərini görmək üçün şərait yaratmışıq, imkanlar yaratmışıq - texniki imkanlar, intellektual potensial, kadr potensialı və maliyyə resursları. Bu gün Azərbaycan iqtisadiyyatı pandemiya böhranından sonra dirçəlir. Artıq mənə verilən məlumata görə, doqquz ayın rəqəmləri müsbətdir, iqtisadiyyat təxminən 5 faiz artıb, sənaye də artıb, qeyri-neft sənayesi isə təxminən 20 faiz artıb. Ancaq hər kəs bilməlidir ki, bütün bu bərpa işləri böyük vəsait tələb edir. Yenə də deyirəm, Azərbaycan heç kimdən heç bir yardım, bir qəpik də yardım almayıb və almayacaq. Bu günə qədər almayıbsa, bundan sonra da almayacaq. Bunu öz imkanlarımız çərçivəsində edəcəyik. Mən tam əminəm ki, bütün planlarımız maksimum qısa müddət ərzində həyatda öz əksini tapacaq, Qarabağ və Şərqi Zəngəzur nəinki Azərbaycanın, dünyanın ən gözəl yerlərindən birinə çevriləcəkdir.

**Sabah - oktyabrın 18-i tarixi gündür. Otuz il bundan əvvəl Azərbaycan dövlət müstəqilliyini elan etmişdir. Bildiyiniz kimi, mənim təşəbbüsümlə milli bayramlarımızla bağlı Azərbaycan Milli Məclisi düzəlişlər edib. Mən hesab edirəm ki, bu düzəlişlər tarixi həqiqətə və tarixi ədalətə tam uyğundur. Bizim üçün əsas müstəqillik bayramı 28 May günüdür, Azərbaycan Xalq Cümhuriyyətinin yaranması günüdür. Biz haqlı olaraq fəxr edirik ki, müsəlman aləmində birinci demokratik respublika məhz Azərbaycan xalqı tərəfindən yaradılmışdır. Biz bu gün müstəqil ölkə olaraq Azərbaycan Xalq Cümhuriyyətinin varisiyik. Azərbaycan Azərbaycan Xalq Cümhuriyyətinin varisidir. 1991-ci il oktyabrın 18-də isə müstəqillik bərpa edildi. Edilən düzəlişlər məhz bu uyğunsuzluğa son qoydu və bunu hər kəs bilməlidir.**

Onu da bildirməliyəm ki, hesab edirəm, o vaxt Azərbaycan rəhbərliyi müstəqilliyi elan edərkən çox əsassız vaxt itkisinə yol verib. Çünki müstəqillik daha əvvəl, daha tez elan oluna bilərdi. Bunu da hər kəs bilməlidir. Biz tarixə ədalətli yanaşmalıyıq. Biz ermənilərdən fərqli olaraq heç bir mifologiya yaratmamalıyıq. Tarixi olduğu kimi bilməliyik və qiymət verməliyik. Çünki 1991-ci ilin oktyabrında bir çox keçmiş müttəfiq respublikalar artıq öz dövlət müstəqilliyini elan etmişdir. Məndə siyahı var, mən həm sizə, həm də Azərbaycan xalqına bu məlumatı vermək istəyirəm, çoxları bəlkə bilmir.

Birinci keçmiş sovet müttəfiq respublikaları arasında öz müstəqilliyini Litva elan etmişdir - 11 mart 1991-ci ildə. Ondan sonra Gürcüstan - 9 aprel 1991-ci il, Latviya - 4 may, Belarus - 27 iyul, Estoniya - 20 avqust, Ukrayna - 24 avqust, Moldova - 27 avqust, Qırğızıstan - 31 avqust, Özbəkistan - 1 sentyabr, Tacikistan - 9 sentyabr, Ermənistan - 21 sentyabr, Türkmənistan - 27 sentyabr, Azərbaycan - 18 oktyabr. Bu qədər gözləməyin səbəbi nə idi? Bilirsiniz, mən bu suala cavab bilirəm. Bu, ritorik sualdır. Ona görə, 18 oktyabr gününü böyük təmtəraqla qeyd etmək, yaxud da ki, kiməsə buna görə minnətdar olmaq tamamilə yersizdir. Sovet İttifaqı dağılırdı, Rusiya Federasiyası özü dövlət suverenliyi haqqında Konstitusiya Aktını bizdən qabaq qəbul etmişdi. Rusiya çıxdı, Ukrayna çıxdı, bütün qalan respublikaları çıxdı. Azərbaycan rəhbərliyi nəyi gözləyirdi, kimi gözləyirdi? Bilirsiniz, ona görə, bu tarixi bilmədən düzgün təsəvvür formalaşdırmaq çətindir. Gələcəkdə düzgün addımların atılması üçün də bu, vacibdir və gənc nəsil də bunu bilməlidir. Tarixi həqiqət belədir. Amma, eyni zamanda, bizim o ildə digər tarixi həqiqət var - o da 17 noyabr tarixidir. 1990-cı il noyabrın 17-də Heydər Əliyevin təşəbbüsü ilə o vaxt Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adı dəyişdirildi, "Sovet Sosialist" sözləri o addan götürüldü, sadəcə, Naxçıvan Muxtar Respublikası adlandırıldı. 1990-cı il noyabrın 17-də Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Naxçıvanda rəsmi bayraq kimi qəbul edildi. Bu tarixi videolar var. Eyni zamanda, Azərbaycan Ali Soveti qarşısında vəsatət qaldırıldı ki, oxşar addımı Azərbaycan Ali Soveti də etsin. Ancaq bunu etmədi. Əksinə, 1991-ci ilin yazında Sovet İttifaqı çərçivəsində keçirilmiş referendumda, Sovet İttifaqının saxlanmasına dair referendumda ovaxtkı Azərbaycan rəhbərliyi xalqın iradəsinə zidd olaraq o referendumun nəticələrini saxtalaşdıraraq Sovet İttifaqının saxlanmasına səs verdi.

**Ancaq Heydər Əliyev qoymadı ki, Naxçıvanda bu referendum keçirilsin. İndi baxın, müstəqilliyə aparan addımlar hansılardır? Müstəqilliyə aparan yollar haradan keçib? Ona görə 18 oktyabrla bağlı sabah mənim Azərbaycan xalqına təbrikim dərc ediləcək. Ancaq, eyni zamanda, mən istərdim ki, hər kəs bu tarixi bilsin və müstəqilliyin əsas səbəbkarlarını tanısın. Bizim müstəqilliyimizə gedən yol məhz 17 noyabr 1990-cı ildən başlamışdır ki, indi dövlət bayrağımız olan üçrəngli bayraq dövlət bayrağı kimi təsis edildi.**

Bu gün bu tarixə toxunarkən, sadəcə olaraq, öz mövqeyimi, öz fikirlərimi sizinlə və Azərbaycan xalqı ilə bölüşmək istəyirəm. Sabah digər tarixi gün qeyd olunacaq - Xudafərin qəsəbəsinin azad olunması. Oktyabrın 18-də Azərbaycan Silahlı Qüvvələri Xudafərin körpüsünə çıxdı və Xudafərin körpüsü üzərində Azərbaycan bayrağını qaldırdı. Xudafərin körpüsü Azərbaycan xalqının milli sərvətidir, Azərbaycan xalqının istedadının sübutudur. Biz Azərbaycan xalqına məxsus olan bu möhtəşəm memarlıq əsəri ilə haqlı olaraq fəxr edirik.

Müharibə artıq tarixdə qaldı, Dağlıq Qarabağ münaqişəsi də tarixdə qaldı, biz gələcəyə baxmalıyıq. Bu gün biz gələcəyi yaradırıq, öz əllərimizlə yaradırıq. Əminəm ki, bütün planlarımız, - bu günə qədər bəyan edilən bütün hədəflər necə təmin edilmişdisə, - növbəti dövr üçün nəzərdə tutulmuş hədəflər də təmin ediləcək. Biz bu hədəflərə çatacağıq, ölkəmizi gücləndirəcəyik, ordumuzu yenə də gücləndirəcəyik və Azərbaycan xalqının təhlükəsiz həyatını təmin edəcəyik. Əlbəttə ki, 30 il ərzində əziyyət içində, o cümlədən mənəvi əzab içində yaşamış köçkünləri maksimum qısa müddət ərzində öz doğma torpaqlarına qaytaracağıq. Bir daha sizi təbrik edirəm və yeni uğurlar, cansağlığı arzu edirəm. Sağ olun.

**Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli Memorial Kompleksinin və Füzuli şəhərinin bərpasının təməl daşını qoyublar.**



# Zabit və əsgərlərimizin xidmətləri dövlət tərəfindən həmişə yüksək qiymətləndirilir

**“Vətən müharibəsində ilk gündən Azərbaycan Ordusu Füzuli rayonu istiqamətində böyük uğurlar əldə etdi. Ardıcıl olaraq rayonun kəndləri işğaldan azad olunmağa başladı. Baxmayaraq ki, düşmən 30 ilə yaxın müddət ərzində burada xeyli möhkəmlənmişdi, güclü istehkamlar qurmuşdu və “keçilməz” adlandırırdı. Amma Ordumuz bir həmlə ilə həmin müdafiə xəttini yardı və sürətlə irəliləməyə başladı. Təbii ki, bu uğurlar silahlı qüvvələrimizin peşəkarlığını, yenilməzliyini göstərir. İnsanlarımız kəndlərin, hətta bundan da kiçik yaşayış məntəqələrimizin azad olunmasını böyük sevinclə qarşılayırdı. Lakin rayon mərkəzlərinin, şəhərlərin işğaldan azad olunması xalqda xüsusi əhval-ruhiyyə yaradır, bir-birilərini təbrik edirdilər. Cəbrayıldan sonra Füzuli şəhərinin azad olması xalqda qələbəyə olan sarsılmaz inamı daha da artırdı, zəfər yolumuzda növbəti hədəflərimiz üçün son dərəcə önəmli rol oynadı”.**

***Bu fikirləri Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev söyləyib.***

O, daha sonra deyib: “Bilirsiniz ki, hər kəndin, qəsəbənin, şəhərin işğaldan azad olunması üçün Ordumuzun fərqli taktikaları olub. Bu zaman həmin məntəqələrin relyefi, iqlimi, düşmənin planları öncədən nəzərə alınıb. Füzuli əməliyyatının unikallığı isə düşmənin gözləmədiyi yerdən, fərqli istiqamətdən Ordumuzun şəhərə daxil olması idi. Artıq hücumun son mərhələsində düşmənin yeganə çıxış yolu silahını da atıb başını götürüb qaçmaq olmuşdu. Bu əməliyyatdan sonra hərbi mütəxəssislər Ordumuzun böyük döyüş qabiliyyətli və texniki təminata malik olduğunu açıq söyləyirdilər. Digər əməliyyatları kimi, bu əməliyyat da hazırda dünyanın aparıcı ali hərbi məktəblərində araşdırılır və öyrənilir. Əsgər və zabitlərimizin bu xidmətləri dövlətimizin diqqətindən kənarda qalmadı. Prezident İlham Əliyevin sərəncamları ilə burada döyüşmüş və şəxsi igidlik nümayiş etdirmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 25167 hərbi qulluqçusu “Füzulinin azad olunmasına görə” medalı ilə təltif olundu”.

**S.Möhbalıyev qeyd edib ki, 17 oktyabr tarixi Füzuli sakinləri ilə yanaşı, bütün xalqımızın yaddaşında daim yaşayacaq, məhz bu gün Vətən həsrətinə son qoyulub, Ordumuzun göstərdiyi misilsiz qəhrəmanlıqlar sayəsində Füzuli şəhəri işğaldan azad edildi: “Bu gün Füzuli rayonunda sürətli abadlıq-quruculuq işləri aparılır, nəhəng layihələr icra olunur. Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rayona hər səfərində görülən və görüləcək işlərin təqdimatı zamanı biz buna şahid oluruq. Müharibə başa çatandan bu yana dövlətimizin başçısı dəfələrlə Füzuli rayonunda olub. Oktyabrın 17-də sonuncu səfəri zamanı da cənab Prezident görülən işlərlə tanış oldu, təməlqoyma mərasimlərində iştirak etdi. Füzuli-Ağdam avtomobil yolunun, Rəqəmsal Yarımstansiya İdarəetmə Mərkəzinin, Dövlətyarlı kəndində yeni “ağıllı kənd”in, həmçinin ilk yaşayış binalarının təməllərinin qoyulması görülən işlərin geniş miqyasını və əhəmiyyətini göstərir. İşlərin bu cür sürətli və keyfiyyətli aparılması, həqiqətən də, bizi inandırır ki, sakinlər yaxın vaxtlarda həmin ərazilərdə yenidən məskunlaşacaq, əvvəlki normal həyatlarına davam edəcəklər”.**



# Təlimlərə cəlb ediliblər

**Hər bir dövlətin əsas missiyası gələcəyini etibar edəcəyi nəsil formalaşdırmaqdır. Azərbaycan Respublikasının da dövlət siyasətinin prioritet istiqamətlərindən biri məhz “gənclər siyasəti”dir. Respublika Prezidenti İlham Əliyev ölkəmizin qüdrətli dövlətə çevrilməsində gənclərə böyük inam bəsləyir.**



Səhiyyə İşçiləri Həmkarlar İttifaqı olaraq, öz gənc üzvlərimizin hərtərəfli inkişafına, azərbaycançılıq və dövlətçilik prinsipləri əsasında vətəndaşlıq, vətənpərvərlik tərbiyəsinin gücləndirilməsinə, sülhsevərlik, humanizm dəyərlərinin təbliğnə çalışırıq.

**Bu istiqamətdə aparılan işlərə nümunə olaraq deyək ki, gənc ittifaq üzvlərimizdən bir qrupunun- 1 nömrəli Bakı Tibb Kollecinin 7 nəfər tələbəsinin Qax rayonunda yerləşən “Xüsusi təyinatlı gənclik düşərgəsi”ndə keçirilən hərbi vətənpərvərlik təlimlərində iştirakını təmin etmişik. Gənclərimiz sərrast atıcılıq, dağa dırmanmaq, kanatdan istifadə, meşədə sağ qalmaq, ilkin tibbi yardım göstərmək və s. kimi təlimlərlə məşğul olublar.**




# Gələcək perspektivlərdən danışdılar

**Nəqliyyat, Rabitə və Yüksək Texnologiya İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin nümayəndələrinin iştirakı ilə Lənkəran şəhərində, Biləsuvar, Lənkəran, Masallı, Lerik, Yardımlı, Astara və Cəlilabad telekommunikasiya qovşaqları və poçt filiallarının həmkarlar ittifaqı komitələrinin sədrləri ilə görüş keçirilmişdir.**

Görüşdə bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparılmış və gələcək perspektivlər müzakirə olunmuşdur.

# Yubiley döş nişanı təqdim olundu

**“Həmkarlar ittifaqları tərəfdaşlarından işçilərin maraqları naminə götürülən öhdəliklərin yerinə yetirilməsini tələb etdiyi kimi, onların sosial sahədə atdıqları müsbət addımları dəyərləndirməyi də işinin tərkib hissəsi sayır”.**



Bu sözləri “Xidmət-İş” Həmkarlar İttifaqları Federasiyasının vitse- prezidenti Xəyyam Nəsibov “Azərittifaqın” sədri, professor, Milli Məclisin deputatı Eldar Allahyar oğlu Quliyevə Azərbaycan Həmkarlar İttifaqları -115 il” yubiley döş nişanını təqdim edərkən deyib. Qeyd edib ki, AHİK -in sədri hörmətli Səttar Möhbalıyevin tövsiyələrinə əsasən, sahə həmkarlar ittifaqları tərəfdaşları ilə sıx əməkdaşlıq şəraitində fəaliyyət göstərir. Nümunəvi tərəfdaşlarımızın təcrübəsi öyrənilir və geniş yayılır.

**Təcrübə göstərir ki, işçilərin sosial və əmək hüquqlarının maksimum qorunması istehsalın maksimum inkişafının başlıca şərtlərindəndir. Biz bu şərtlərin Sizin təşkilatda uğurla həyata keçirildiyini uzun müddətdir ki, müşahidə edirik. Müşahidələr nəticəsində bilirik ki, hörmətli Eldar müəllim, Siz, rəhbər işçi olaraq, ilk təşkilatımızın işi ilə daim maraqlanırsınız. Təşkilatın təşəbbüslərini, təkliflərini ciddi qarşılayır, qanunvericiliyin büdcənin imkanları daxilində tətbiqinə dəstək göstərirsiniz.**

Sonra Xəyyam müəllim yubiley döş nişanını E. Quliyevə təqdim etdi. Ona Səttar Möhbalıyevin təbrikini və xoş arzularını çatdırdı.

**E. Quliyev AHİK-in göstərdiyi bu diqqəti yüksək qiymətləndirdi. Yubiley döş nişanını ittifaqın bütün əməkdaşlarına, eləcə də kollektivə sayğının yaxşı nümunəsi adlandırdı. Təşəkkürlərinin Səttar müəllimə çatdırılmasını xahiş etdi. Bildirdi ki, bu mükafat təşkilatımızla həmkarlar ittifaqı arasında mövcud olan əməkdaşlığın daha da möhkəmləndirilməsinə öz töhfələrini verəcək.**

# Daha bir şəhid ailəsi himayəyə götürüldü

**Müdafiə Sənayesi İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin Rəyasət Heyəti oktyabrın 5-də keçirilmiş iclasında İkinci Qarabağ müharibəsi şəhidi Nurlan Rəfail oğlu Zeynalovun ailəsinin sosial müdafiəsini gücləndirmək məqsədilə onun 30.08.2018-ci il təvəllüdlü qızı Nuray Milli Aerokosmik Agentliyinin (MAK) Həmkarlar İttifaqı Komitəsi tərəfindən himayəyə götürülməsi barədə qərar qəbul etdi.**



Bu təşəbbüs Respublika Komitəsinə oktyabrın 4-də MAK Həmkarlar İttifaqı Komitəsindən daxil olmuşdu. Əlbəttə, bir halda ki, təşəbbüsün əsasında şəhid ailəsi durur, deməli, onun həyata keçirilməsini bircə gün də yubatmaq olmazdı. Qərarda yazılıb ki, noyabrın 1-dən etibarən hər ay azyaşlı Nurayın anası Seyidkübra Mirismayıl qızı Zeynalovanın hesabına 200 manat vəsait köçürülsün. Maliyyələşmə MAK HİK-in birgə vəsaiti hesabına aparılsın.

Məlumat üçün deyək ki, Respublika Komitəsi N.Zeynalovdan başqa, nazirlikdə işləmiş daha iki şəhidin ailəsini himayəyə götürüb. Bütövlükdə isə Azərbaycan həmkarlar ittifaqlarının himayəyə götürdüyü şəhid ailələrinin sayı 270 nəfərdir.

**Nurlan kimdir? Şəhidlik şərəfinə nail olana qədər hansı qəhrəmanlıqları göstərib?**



**Vətən müharibəsi başlayanda Nurlan Milli Aerokosmik Agentliyi Ekologiya İnstitutunda Kadrlar şöbəsinin rəisi vəzifəsində işləyirdi. Ehtiyatda olan zabit idi. Müasir texnologiyadan yaxşı baş çıxardırdı. Təsadüfi deyil ki, şöbə müdiri vəzifəsinə təyin olunana qədər bu institutda kompüter operatoru kimi fəaliyyət göstərib.**

N.Zeynalov əslən Sabirabad rayonunun Qalağayın kəndindəndir. Ona görə də ermənilərin elan olunmamış müharibəyə başladığı ilk gündən dərhal qeydiyyatda olduğu Sabirabad rayonunun hərbi komissarlığına getdi. Müraciətini nəzərə alıb onu ordu sıralarına qəbul edib Gəncədəki “N” saylı hərbi hissəyə göndərdilər. Qısa müddət hərbi hazırlıqdan sonra “Həmlə taboru”na tağım komandiri təyin olunaraq döyüş bölgəsinə yola salındı. Vaxt baxımından qısa olsa da, məsafə və döyüşlərin ağırlığı baxımından uzun, ilk baxışda sonu görünməyən igidlik, təmkin, hərbçi istedadı hesabına qət olunan çətin bir yol keçdi. Füzulinin, Zəngilanın, Qubadlının düşməndən geri alınmasında, Şuşa uğrunda döyüşlərdə qəhrəmancasına iştirak etdi. Təbii ki, bu əraziləri fəth etmək üçün yüzlərlə erməni cəsədini tapdalayıb keçmək lazım idi. Bu cəsədlərin bir çoxu Nurlanın atəşinin qurbanı olmuşdu. N. Zeynalovun tağımı Xocavənd döyüşlərində düşmənin güclü müqaviməti ilə üzləşdi. Xüsusi əhəmiyyətli yüksəklikləri əldə etmək və qorumaq əmri gəlmişdi. Nurlan tağıma, canı-qanı bahasına olsa da, əmri icra etmək tapşırığı verdi. Tağım istəyinə nail oldu. Düşmənin müqaviməti qırıldı və məhv edildi. Tağım da itki verdi. Bu döyüşdə Şəhidlik zirvəsinə yüksələnlərdən biri də Nurlan idi. İgid, unudulmaz Nurlan.

**Qəhrəman döyüşçümüzün xatirəsi dövlətimiz tərəfindən uca tutulur. Respublika Prezidentinin Sərəncamı ilə N. Zeynalov “Vətən uğrunda”, “İgidliyə görə”, “Füzulinin azad olunmasına görə”, “Xocavəndin azad olunmasına görə” medallarına layiq görülüb.**

# Əhalinin sosial müdafiəsini gücləndirəcək addım




**Prezident İlham Əliyev oktyabrın 16-da "Əhalinin sosial rifahının qorunması sahəsində əlavə tədbirlər haqqında" Sərəncam imzalayıb.**

Sərəncamda ölkə əhalisinin rifah halının yaxşılaşdırılmasının aparılan sosial-iqtisadi siyasətin mühüm prioritetlərindən biri olduğu vurğulanır, son illər əhalinin sosial müdafiəsinin gücləndirilməsi, sosial ödənişlərin, əməkhaqlarının artırılması istiqamətində ardıcıl addımların atıldığı qeyd olunur.

Sənəddə deyilir ki, dünya miqyasında iqtisadi fəallığın bərpası və məcmu tələbin artması templərinin vaxtilə dayandırılmış istehsal, nəqliyyat-logistika və təchizat güclərinin iqtisadi dövriyyəyə qaytarılması sürətini xeyli üstələməsi beynəlxalq bazarlarda bir çox əmtəələrin qiymətlərinin əhəmiyyətli dərəcədə qalxmasını şərtləndirərək yeni çağırışlar yaradıb. Bu vəziyyət ölkəmizə idxal olunan əmtəələrin, o cümlədən bir sıra ərzaq məhsullarının qiymətlərinin artımına səbəb olur və nəticə etibarilə sosial baxımdan ən həssas əhali qruplarının rifah halına mənfi təsir göstərir.

Bunları nəzərə alaraq, Nazirlər Kabinetinə əməkhaqlarının, əmək pensiyalarının və sosial müavinətlərin, təqaüdlərin və digər sosial ödənişlərin məbləğlərinin artırılmasının təmin edilməsi ilə bağlı 2022-ci il dövlət büdcəsi layihəsində müvafiq tədbirlərin əks etdirilməsi üçün təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etmək tapşırılıb.

**Sərəncam beynəlxalq bazarlardakı proseslərin ölkədaxili qiymətlərə sirayət etməsinin ölkə əhalisinə, xüsusilə həssas əhali qruplarına mənfi fəsadlarını yumşaltmaq və əhalinin sosial müdafiəsini gücləndirmək məqsədi daşıyır.**

**Millət vəkili Tahir Mirkişili** deyib ki, ölkə başçısının siyasətinin mərkəzində hər zaman Azərbaycan vətəndaşı dayanıb. O, bunu tarixin bütün anlarında sübut edib. Dövlət büdcəsi gəlirlərinin proqnozdan artıq hissəsi, əlavə gəlirlər daim vətəndaşların sosial vəziyyətinin daha da güclənməsinə yönəldilib. Dövlət qarşısında duran nəhəng və çətin layihələrin maliyyə tələblərinə baxmayaq, Prezident İlham Əliyev oktyabrın 16-da "Əhalinin sosial rifahının qorunması sahəsində əlavə tədbirlər haqqında" Sərəncam imzalamışdır. Sərəncam birbaşa 2 milyona yaxın insanı əhatə edəcək. Milli Məclisə daxil olacaq 2022-ci ilin Dövlət Büdcəsi layihəsində sosial xərclərin əhəmiyyətli dərəcədə artırılması gözlənilir. Hesab edirəm ki, əhalinin gəlirlərinin (maaş, pensiya, təqaüd və sairə) xeyli dərəcədə artımına gətirib çıxardacaq by dəyişikliklər kommunal sahədə əhalinin xərclərinin artan hissəsini bir neçə dəfə üstələyəcək.

Millət vəkili qeyd edib ki, ölkədə idarəetmənin təkmilləşməsi, maliyyə şəffaflığı, büdcə vəsaitlərinə edilən qənaət, zərərlə işləyən sahələrin zərərdən çıxarılması dayanıqlı iqtisadi artım modeli qurmaq yolunda atılan mühüm addımlardır. Dayanıqlı iqtisadi artım modelinin isə son məqsədi vətəndaşların daha yaxşı və təhlükəsiz yaşayışını təmin etməkdir.

***-Maaş və pensiya artımı kimlərə şamil olunacaq?***

-Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən verilən məlumata görə, dövlət başçısının imzaladığı Sərəncam sosial ödənişlərin gücləndirilməsi üçün növbəti mühüm addımın atılmasına imkan verir.

Sərəncamın icrası olaraq əmək müqaviləsi ilə çalışanların böyük qisminin əməkhaqları artırılacaq. Həmçinin minimum əməkhaqqı alanların da məvacibləri yüksəldiləcək. Bu islahat 1 milyonadək işçini əhatə edəcək. Pensiya və sosial müavinət artımı tədbiri isə 450 min şəxsə müvafiq sosial ödənişin artırılmasına imkan verəcək.

Təqaüd artımı istiqaməti isə tələbələrin rifahına dəstək məqsədi daşıyır. Təqribən 130 minədək tələbənin təqaüdündə artım olacaq.

**Sərəncamın icrası ilə sosial ödəniş artımı həmçinin aztəminatlı əhali kateqoriyasına aid ailələri də əhatə edəcək.**

Ümumilikdə 1 milyon 800 min vətəndaşı əhatə edəcək Sərəncam onların sosial müdafiəsinin gücləndirilməsinə xidmət edir.

### Təkliflərin hazırlanması üzrə işlərə başlanılıb

**Maliyyə Nazirliyinin** mətbuat xidmətindən bildirilib ki, Sərəncamdan irəli gələn tapşırıqların 2022-ci ilin dövlət büdcəsi layihəsində əks etdirilməsi üçün müvafiq təkliflərin hazırlanması üzrə işlərə artıq başlanılıb.

Bununla əlaqədar 2022-ci ilin dövlət büdcəsinin gəlir və xərclərinə baxılır, əməkhaqlarının, əmək pensiyalarının və sosial müavinətlərin, təqaüdlərin və digər sosial ödənişlərin məbləğlərinin artırılmasının maliyyə təminatının yaradılması ilə bağlı məsələlər nəzərdən keçirilir. Dövlət büdcəsi layihəsinə müvafiq düzəlişlərin edilməsi ilə bağlı təkliflər ən qısa müddətdə Nazirlər Kabinetinə təqdim olunacaq.

**Nazirlər Kabinetinin mətbuat xidmətinin rəhbəri İbrahim Məmmədov deyib ki, Sərəncamda Nazirlər Kabinetinə əməkhaqlarının, pensiya və sosial müavinətlərin, təqaüdlərin və digər sosial ödənişlərin məbləğlərinin artırılması ilə bağlı 2022-ci ilin dövlət büdcəsi layihəsində müvafiq tədbirlərin əks etdirilməsi üçün təkliflər hazırlanması və dövlət başçısına təqdim edilməsi tapşırılır. Həmin təkliflərin hazırlanmasına artıq başlanıb və qısa müddət ərzində bu təkliflər yekunlaşdırılaraq təqdim ediləcək.**

# Müstəqilliyin töhfəsi:

## Azərbaycan dünyanın nüfuzlu dövlətləri sırasında

**Oktyabrın 18-də Azərbaycan Respublikasının müstəqilliyinin bərpasının 30 ili tamam oldu. İkinci dəfə qazanılan müstəqillik illəri Azərbaycan üçün çətin, lakin davamlı bir inkişaf dövrü olmuşdur. Ümummilli lider Heydər Əliyev tərəfindən təməli qoyulan milli dövlət strategiyası sayəsində Azərbaycan dünyanın nəhəng dövlətləri ilə bərabərhüquqlu münasibətlər yaratmağa nail oldu.**



öz növbəsində bu əməlləri yüksək qiymətləndirir.

**Bu siyasətdə əsas məqsəd dövlətimizin möhkəmlənməsi, xalqımızın daha yaxşı yaşaması, sabitliyin təmin edilməsidir. Ötən illərdə əldə edilmiş iqtisadi və sosial nailiyyətlər bunu bir daha təsdiqləyir. İqtisadiyyatımız 2,2 faiz artmışdır. Xüsusilə nəzərə alaraq deyə bilərik ki, qeyri-neft sektorunda artım 3,5 faizdir. Sənaye istehsalı 1,5 faiz artıb. Bunun da səbəbi məhz neftin hasilatı ilə bağlıdır. Ancaq bizim əsas prioritetimiz olan qeyri-neft sektoru 14 faizdən çox artıb. Burada, əlbəttə ki, ötən il istismara verilmiş nəhəng sənaye müəssisələrinin fəaliyyətə başlaması, eyni zamanda kiçik və orta sahibkarlığın inkişafı, biznes mühitinin yaxşılaşdırılması xüsusi rol oynayıb.**

Azərbaycanın dünyada sürətlə inkişaf etməkdə olan gənc müstəqil dövlət kimi nüfuz qazanması Prezident İlham Əliyevin uğurla davam etdirdiyi iqtisadi - sosial və siyasi islahatların məntiqi nəticəsidir. 30 illik inkişaf yolunun ən böyük nailiyyətləri Azərbaycan dövlətinin iqtisadi gücünün artırılması və siyasi müstəqilliyinin daha da möhkəmləndirilməsi, işğal altında olan bütün ərazilərin azad edilməsidir. İnformasiya-kommunikasiya texnologiyalarının tətbiqi, təhsil sisteminin müasir tələblər səviyyəsində qurulması, sənaye sahəsində dünyanın qabaqcıl transmilli şirkətləri ilə əlaqələrin genişlənməsi ölkəmizi regionun aparıcı dövlətlərindən birinə çevirib.

**Azərbaycanda innovativ inkişafın yeni reallıqları dünyanın müasir sənaye ölkələrindən birinə çevrilməsində mühüm perspektivlər açır. Azərbaycan hazırda yeni sənaye dövrünə qədəm qoyur. Ölkədə sənaye sektoru innovasiya, yeni iş yerləri yaratma və artım mənbəyi kimi qəbul edilir. Azərbaycan kimi orta gəlirli ölkələr üçün rəqabət qabiliyyətini artırmaq, yeni bazarlara çıxmaq və insan potensialına yeni innovativ sənaye sahələrinə və texnologiyalara investisiya qoyuluşu prioritet təşkil edib.**

Ümumilikdə ötən 10 il ərzində regionların sosial-iqtisadi inkişafı sahəsində həyata keçirilən siyasət ölkənin makroiqtisadi göstəricilərinin sürətlə yaxşılaşmasına səbəb olmuş, Ümumi Daxili Məhsul (ÜDM) 3,2 dəfə, adambaşına düşən ÜDM-in həcmi 2,8 dəfə, qeyri-neft sektoru 2,6 dəfə və ölkəmizdə orta illik iqtisadi artım 12,9 % təşkil etmişdir.

Kənd təsərrüfatı və iqtisadi sahədə yaxşı nəticələr əldə edilib. Azərbaycan indi iqtisadi inkişaf, ciddi islahatlar yolundadır. İslahatlar cəmiyyət tərəfindən yüksək qiymətləndirilir. Çünki bu islahatlar insanların həyat səviyyəsini yaxşılaşdırır, ölkəmizin iqtisadiyyatını sürətləndirir. Kənd Təsərrüfatı və Qida Sənayesi İşçiləri Həmkarlar İttifaqı Federasiyası da

Meliorativ tədbirləri də qeyd etsək, iki böyük su anbarı - Taxtakörpü və Şəmkirçay tikilib. Bunlar olmasaydı, orada yerləşən rayonlarda su qıtlığı yaranacaqdı. Bunların hamısı su qıtlığını aradan qaldırmaq üçün görülən böyük işlərdəndir.

**İkinci Qarabağ müharibəsində Azərbaycanın qələbəsində, dövlətimizin başçısının da dəfələrlə vurğuladığı kimi, bizim birlikdə güclü olmağımız önəmli rol oynadı. Başqa sözlə, Xalq-Prezident-Ordu vəhdəti ərazi bütövlüyümüzün bərpasında, torpaqlarımızın işğaldan azad edilməsində mühüm əhəmiyyət daşıdı.**

Şübhəsiz ki, ölkəmizə rəhbərlik etdiyi dövr ərzində cənab İlham Əliyevin müdrik rəhbərliyi ilə Azərbaycan bu qələbəyə, necə deyərlər, addım-addım yaxınlaşırdı. Münaqişənin davam etdiyi illərdə cənab Prezident çox böyük uzaqgörənlik və təmkinlə həm diplomatik, həm də ordu quruculuğunda təxirəsalınmaz tədbirlər reallaşdırırdı.

**Azərbaycan xalqı Müstəqilliyin Bərpası Gününü ilk dəfə ərazi bütövlüyünü bərpa etmiş qalib xalq kimi qeyd edir. Biz bu günə 30 ilə yaxın bir vaxt idi ki, gözləmişik. Müstəqilliyimiz əbədi, torpaqlarımız daim bütöv olsun.**

**Tofiq QULİYEV,**
**"Kənd - Qida- İş" Həmkarlar İttifaqı Federasiyasının sədri**

# Tarif (qiymət) Şurasının növbəti iclası keçirilib

***Oktyabrın 16-da Tarif (qiymət) Şurasının növbəti iclası keçirilib.***

***Tarif Şurasından bildirilib ki, iclasda təbii qazın və elektrik enerjisi tariflərinə baxılıb, müvafiq qərarlar qəbul edilib.***

Tarif (qiymət) Şurasının iclasında dünya bazarında təbii qazın bahalaşması, ölkəmizin enerji dayanıqlığı məqsədilə bu sahəyə investisiya qoyuluşunun təmin edilməsi, xidmət səviyyəsinin yüksəldilməsi, dövlət büdcəsindən asılılığın aradan qaldırılması, eləcə də istehlak edilən təbii qazın istehsal və təchizat xərclərinin ödənilməsi kimi məsələlər müzakirə edilib.

**Aparılan müzakirələrdə ölkəmizdə iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsinin əsas strateji hədəf kimi müəyyən edilməsi, enerji təhlükəsizliyinin təmin olunması, iqtisadiyyatın dinamik və intensiv inkişafına əlverişli şəraitin yaradılması, resurslardan məqsədyönlü və səmərəli istifadə edilməsi, istehlakçıların və istehsalçıların maraqlarının uzlaşdırılması, bu sahədə mərhələli şəkildə bazar münasibətlərinin formalaşdırılması və dövlət büdcəsindən ayrılan subsidiyaların aradan qaldırılması nəzərə alınmaqla müxtəlif tarif artımı variantları dəyərləndirilib. Təhlillər göstərir ki, təbii qazın hasilat və istehlakçıya çatdırılma xərci satış qiymətlərini üstələyir. Bu isə sahənin dövlət tərəfindən subsidiyalaşdırılmasına və dövlət büdcəsindən asılılığa artmasına səbəb olur.**

İclasda tarif artımı variantları nəzərdən keçirilərkən, aztəminatlı əhali təbəqəsi üçün kommunal tariflərin dəyişdirilməsinin onların gəlirlərinin artırılması istiqamətində atılan addımlarla uzlaşdırılmasının önəmi vurğulanıb.

**Tarif (qiymət) Şurası üzvlərinin yekdil qərarı ilə təbii qazdan istifadə tarifləri aşağıdakı kimi təsdiq edilib:**

| № | Göstəricilər | Mövcud tarif | Yeni tarif |
|---|---|---|---|
| | | Tariflər (manat/1000 m3, ƏDV ilə) | |
| 1. | "Azneft" İB-dən alınan | 75 | 90 |
| 2. | Topdansatış ("Azəriqaz" İB, "Naxçıvanqaz" İB) | 110 | 118 |
| 3. | Əhali | | |
| 3.1. | 1200 m3-dək (1200 m3 daxil olmaqla) | 100 | 120 |
| 3.2. | 1200 m3-2500 m3 | 200 | 200 |
| 3.3. | 2500 m3-dən çox | 250 | 250 |
| 4. | Qeyri-əhali | | |
| 4.1. | Sənaye və kənd təsərrüfatı | 200 | 220 |
| 4.2. | "Azəristiliktəchizat" ASC, məhəllə qazanxanaları və CNG tipli qazdoldurma məntəqələrinə | 130 | 165 |
| 4.3. | Digər | 250 | 250 |
| 4.4. | Metanol və karbamid zavodları | 200 | 200 |
| 5. | "Azərenerji" ASC | 130 | 165 |
| 6. | Təbii qazın emalı | 5,5 | 5,5 |
| 7. | Təbii qazın nəqli | 5,3 | 5,3 |
| 8. | Təbii qazın yeraltı qaz anbarlarına vurulması və götürülməsi | 8,25 | 8,25 |

Əhali istehlak qrupu üzrə sonuncu tarif dəyişikliyi 2021-ci ilin iyul ayında aparılıb və tarif tənzimlənməsi zamanı istehlak limitinin aşağı həddi üzrə (1200 kubmetr) tariflərə dəyişiklik olunmayıb.

Təbii qaz qiymətlərinin sürətli artımı dünyada, o cümlədən Avropada elektrik enerjisi qiymətlərinin kəskin qalxmasına təkan verib. 2021-ci ilin əvvəlindən etibarən sənaye və iaşə müəssisələrinin fəaliyyətini bərpa etməsi, qlobal iqtisadi aktivliyin gözləniləndən daha sürətli canlanması elektrik enerjisinə tələbatı da kəskin artırıb. Qiymətlərin artma doğru istiqamətlənməsi nəticəsində bir çox ölkələrdə təbii qazdan və elektrik enerjisindən istifadə edən sahələr üçün tariflər dəyişib, istehlakçı kateqoriyaları üçün kommunal xərclər artıb.

**Qeyd olunmalıdır ki, ölkədə əsas enerji istehsalçısı olan "Azərenerji" ASC elektrik enerjisinin 96 faizini təbii qaz hesabına istehsal edir. Azərbaycanın istilik elektrik stansiyalarında elektrik enerjisi istehsalı üçün istifadə olunan xammalın da 50 faizdən çox hissəsini təbii qaz təşkil edir. Bu baxımdan təbii qazın tarif dəyişikliyi elektrik enerjisinin qiymət artımını şərtləndirir.**

Elektrik enerjisi üzrə mövcud tariflər 01.12.2016-cı il tarixindən tətbiq olunur. Sektorda aparılan infrastruktur işlərinin genişləndirilməsi, əhalinin və digər abonentlərin keyfiyyətli, fasiləsiz enerji ilə təmin edilməsi, habelə enerjinin istehsalı üçün istifadə edilən təbii qazın qiymətində dəyişikliklər nəticəsində yaranan əlavə xərcləri qarşılamaq üçün elektrik enerjisinin tarif tənzimlənməsi zərurəti yaranıb.

**İclasda Tarif (qiymət) Şurası üzvlərinin yekdil qərarı ilə elektrik enerjisindən istifadə tarifləri aşağıdakı kimi təsdiq edilib:**

| № | Göstəricilər | Mövcud tarif | Yeni tarif |
|---|---|---|---|
| | | Tariflər (qəpik/kVts, ƏDV ilə) | |
| 1. | "Azərenerji" ASC üzrə topdansatış tarifi | 5,7 | 6,6 |
| 2. | Alüminium sənayesi üzrə gecə-gündüz tarifi | 2,8-5,8 | 3,1-6,4 |
| 3. | Kimya sənayesi | 4,55 | Digər istehlakçı qrupuna aid edilir |
| 4. | Əhali | | |
| 4.1. | 300 kVts-dək | 7 | - |
| 4.2. | 300kVts-dan çox | 11 | - |
| 4.3. | 200 kVts-dək (200 kVts daxil olmaqla) | - | 8 |
| 4.4. | 200 kVts-dan - 300 kVts-dək (300 kVts daxil olmaqla) | - | 9 |
| 4.5. | 300 kVts-dan çox | - | 13 |
| 5. | Qeyri-əhali | | |
| 5.1. | Ticarət və xidmət | 9 | 11 |
| 5.2. | Digər | 9 | 10 |

Ölkədə aparılan sosialyönümlü siyasət nəzərə alınmaqla və əhalinin aztəminatlı təbəqəsinin sosial müdafiəsi məqsədilə əhali üzrə diferensiallaşdırılmış tariflərin sayı 2-dən 3-ə artırılıb.

İclasda həmçinin kimya sənayesi qeyri-əhali istehlakçı qrupuna aid edilib, enerji təchizatı birbaşa 35 və 110 kV-luq xətlərlə həyata keçirilən, gün ərzində yük tələbatı sabit olan, istehsal məqsədləri üçün orta aylıq enerji istehlakı 5 milyon kVts-dan az olmayan məlumatların emalı, qeydə alınması və ötürülməsi üzrə fəaliyyət göstərən məlumat mərkəzlərinə elektrik enerjisinin müqavilə qiyməti ilə verilməsi məqsədəuyğun hesab olunub.

**Tarif dəyişikliyi nəticəsində qaz və elektrik enerjisi istehsalı və təchizatı ilə məşğul olan təsərrüfat subyektlərinin dövlət büdcəsindən asılılığı tədricən azalacaq, büdcədə sərbəstləşən vəsait sosialyönümlü tədbirlərə yönəldiləcəkdir.**

***Qərarlar 2021-ci il noyabrın 1-dən qüvvəyə minir.***

# "Yıxıb köləliyi ürəyimizdə, Cəsarət mülkünü tikdi ŞƏHİDLƏR"

## "Ata, qorxmaq nədi? Heç ölmək belə ağlıma gəlmir!"



**İkinci Qarabağ müharibəsində qanı ilə tarix yazan şəhidlərimizdən biri də *Yusif Yaşar oğlu Ələsgərovdur*. Yusif 1996-cı il oktyabrın 14-də Tovuz rayonunun Yuxarı Öysüzlü kəndində anadan olub. 2014-2016-cı illərdə Daxili Qoşunların "N" saylı hərbi hissəsində xidmət edib. 2017-ci ildən Silahlı Qüvvələrin "N" saylı hərbi hissəsində müddətdən artıq həqiqi xidmət hərbi qulluqçusu kimi xidmətə başlayıb.**

2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli, Xocavənd, Cəbrayıl və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə tankçı kimi iştirak edib. Oktyabrın 24-də Qubadlı döyüşləri zamanı ağır yaralanıb. Müalicəsi tam bitmədən yenidən döyüş bölgəsinə qayıdıb. Yusif noyabrın 7-də Xocavənd rayonu istiqamətində gedən döyüşlərdə şəhid olub.

**Tovuz rayonunun Yuxarı Öysüzlü kəndində torpağa tapşırılıb.**

Atası Yaşar Ələsgərov oğlu haqqında danışarkən kədərlənsə də, onunla qürur duyduğunu da bildirdi: "Tankları 3 dəfə vurulmuşdu. 3-cü dəfə vurulanda Qubadlıda meşənin içində olublar. Tank ciddi zədələnib. Arxadan bunlara əmr veriblər ki, tankı tərk edin. Birinci mexanik, arxasınca Yusiflə komandiri çıxıblar. 2-3 metr aralandıqdan sonra yanlarına minamyot düşüb. Zərbənin dalğasından Yusif və komandiri tanka çırpılıb. Tank komandirinin beli sınıb, Yusif də boyun və kürəyindən zədə alaraq huşunu itirib. Ayılanda görüb ki, komandiri qıraqda huşsuz vəziyyətdədir. Tez qucaqlayıb sürüyə-sürüyə ağacın arxasına çəkib, sonra da rabitə ilə yaralandıqları barədə məlumat verib".

**Anası Sevinc Abdullayeva hospitalda olanda oğluna geri qayıtmamasını, müalicəsini tam bitirməsini nə qədər desə də, yenə də Yusif qərarından dönməyib: "Ana, məndən də ağır yaralananlar var", - deyib. Ərizə yazıb geri qayıdıb. Qayıdanda yoldaşları təəccüblə ağır yaralandığını, nə üçün geri döndüyünü soruşublar.**

Əmisi Nazim Qarayev qardaşı oğlu haqda fəxrlə danışaraq deyir: "Yusif tankda tuşlayıcı idi. Yoldaşları danışır ki, Qubadlı uğrunda gedən döyüşdə 69 erməni əsgərini məhv etmişdi. Belə oğullarımızla biz fəxr edirik".

Sevinc xanım deyir, döyüş yoldaşları danışırlar ki, Yusifgilin tankı həmişə öndə gedirmiş. Axırıncı dəfə noyabrın 7-da Horadizdən Xocavənd uğrunda döyüşlərə qatılmaq üçün 7 tankla çıxıblar. Elə bu döyüşdə də Yusif Şəhidlik zirvəsinə ucalır: "Atası bir dəfə zarafatla dedi ki, "bəlkə qorxursan?". Dedi, "ata, qorxmaq nədi? Heç ölmək belə ağlıma gəlmir. Biz Vətən uğrunda döyüşürük".

**Babası Sabir Ələsgərov illərdir düşmən işğalında olan torpaqların azad edilməsində nəvəsinin də payı olduğu üçün qürur hissi duyduğunu deyir: "Mənim nəvəm və digər qəhrəman övladların sayəsində biz artıq başı dik, alnıaçıq gəzə bilərik".**

Nənəsi Qənirə Aslanova deyir, Yusif Vətəni seçdi, ailəsini yox: "Vətən yolunda şəhid oldu mənim nəvəm, gözümü yolda qoydu... Təki Vətən sağ olsun!".

**Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Prezident İlham Əliyevin Sərəncamı ilə Yusif Yaşar oğlu Ələsgərov "Vətən uğrunda" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.**

## Amid düşmənin müdafiə xəttini yaran ilk cəsur döyüşçülərimizdən biri olub



**Vətən müharibəsində idarə etdiyi tankla düşmənin müdafiə xəttini yararaq onların mövqelərini darmadağın edən cəsur zabitlərimizdən biri də şəhid mayor *Amid Heydərovdur*.**

Amid Rəbbil oğlu Heydərov 1988-ci il mayın 20-də Lerik rayonunda dünyaya göz açıb. Uşaqlıqdan özünə Həzi Aslanovu örnək seçən Amidin böyüyəndə general olmaq arzusu onu Cəmşid Naxçıvanski adına Hərbi Liseyə gətirib çıxarır. Daha sonra təhsilini Heydər Əliyev adına Ali Hərbi Məktəbində davam etdirir, hərb sənətinin sirlərinə mükəmməl yiyələnərək tankçı olmaq arzusunu reallaşdırır.

Atası Rəbbil Heydərov deyir ki, Amid Aprel döyüşlərində Lələtəpəyə çıxan ilk tankçı olub. 32 yaşında hərbi hissə komandiri olan Amid Heydərov Vətən müharibəsində də hücum əmri veriləndə tankı ilə birgə düşmənin müdafiə xəttini yaran ilk cəsur döyüşçülərimizdən biri olur. O, Cəbrayıl və Füzuli uğrunda gedən döyüşlərdə savaşır, oktyabrın 3-də elə Cəbrayılın azadlığı uğrunda döyüşdə Şəhidlik məqamına ucalır.

Lerik şəhərində dəfn olunur.

**Atası Rəbbil Heydərov: "Onun tankı vurulmuşdu. Yaralıları tankdan çıxarmaq istəsə də, ermənilər imkan vermirdi. İkinci tankla təkbaşına düşmən üzərinə gedir, mərmilərinin hamısını düşmənin postuna tuşlayır. Nəhayət, düşməni susdurur. Mərmisi qurtardığı üçün geri qayıdanda onun tankı yenidən hədəf alınır. Oğlum tankın içində qəhrəmancasına şəhid olur".**

Şəhidin anası Şükufə Heydərova deyir ki, oğlunun intiqamı düşməndən alındı, Şuşaya bayrağımızın taxılması ilə Amidin ruhu şad oldu: "Hər gün onun otağına girirəm, şəkilləri və paltarları ilə danışıram. Çox çətindir, onun yoxluğu ilə barışa bilmirəm. Amid çox mərd uşaq idi. Oğlum iki dəfə müharibədə iştirak etdi. Lələtəpə yüksəkliyini alanda birinci tankı ora özü çıxardı. Vətən müharibəsində də tankın üstünə yazmışdı ki, "Şuşa son mənzilimiz". Çox təəssüf ki, ora çata bilmədi, qəhrəmancasına şəhid oldu".

**Amid özündən sonra Vətənə, ailəsinə 2 övladı əmanət qoydu. İndi onlar da ataları kimi vətənpərvər ruhda böyüyür.**

Şəhidin həyat yoldaşı Nuranə Heydərova deyir: "Səkkiz ildir ailə həyatı qurmuşduq. Hərbçi olmaq şərəfdir, lakin bir o qədər də çətindir. Amidin yoxluğundan aylar keçsə də, hələ də onu itirdiyimə inana bilmirəm. Çox mehriban insan idi, yumşaq ürəyi vardı".

Qardaşı Asim isə bildirir ki, Amid ona həm qardaş, həm dost, həm də sirdaş və arxa idi: "Bu həyatda mən qardaş və dost itirmişəm. Həmişə danışanda deyirdi ki, "İnşallah, az qalıb, torpaqlarımız tam azad olunacaq". Ən böyük arzusu general olmaq idi. Bir də Lələtəpəyə çıxdığı kimi, Şuşaya da ilk gedən tankçı olmaq arzusunda idi. Qismət olmadı, amma yoldaşları onun arzusunu yerinə yetirdilər. Qardaşımın qanını yerdə qoymadılar, Qarabağımız işğaldan azad olundu".

**Amid Rəbbil oğlu Heydərov "Azərbaycan Silahlı Qüvvələrinin 90 illiyi", "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi", "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalları, "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli medalı, ölümündən sonra isə Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə "Vətən Müharibəsi Qəhrəmanı", "Vətən uğrunda" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.**

## Yaralı silah yoldaşını 25 km. belində daşıyan qəhrəman



**Azərbaycan Silahlı Qüvvələrinin baş leytenantı *Azad Arif oğlu Hümbətov* 1996-cı il yanvarın 24-də Bakı şəhərində dünyaya gəlib. 2013-cü ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində tank bölüyü ixtisasına yiyələnib, 2017-ci ildə leytenant hərbi rütbəsi alaraq Füzuli rayonunun Horadiz şəhərində yerləşən "N" saylı hərbi hissədə xidmətini davam etdirib.**

Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində 45 günlük zabit heyətinin təkmilləşdirmə kursunda iştirak edərək baş leytenant rütbəsi alıb.

Müharibənin başladığı ilk günlərdən döyüşlərə atılır. Füzuli, Qubadlı, Laçın rayonlarının işğaldan azad olunması uğrunda gedən döyüşlərdə qəhrəmanlıq göstərərək düşmənin xeyli sayda canlı qüvvəsini və texnikasını məhv edir. Hətta döyüşlər zamanı onu rəhbəri olduğu tank bölüyü ilə bərabər, daha çox ehtiyac duyulan piyada döyüş bölüyünə də komandir təyin etmişdilər.

**Döyüş zamanı Azadın komandanlıq etdiyi tank minaya düşür. Özü ayağından yaralanır. Lakin buna baxmayaraq, tankı idarə edən mexanikin daha ağır xəsarət aldığını görərək özündə güc toplayır və yaralı silah yoldaşını 25 km. belində daşıyaraq meşə ərazisinə gətirir. Çətinliklə 2 gün yaralı halda döyüş yoldaşını daşıyaraq postlarına gəlib çata bilir. Bundan sonra Azadın vəziyyəti ağırlaşdığından onu müalicə almaq üçün Beyləqana göndərirlər. Lakin o, müalicəsini yarımçıq qoyaraq yenidən döyüş meydanına qayıdır. Ailəsi onun yaralı vəziyyətdə olmasından, müalicəsini yarımçıq qoyub yenidən döyüş meydanına qayıtmasından yalnız şəhid olandan sonra xəbər tutur. O, oktyabrın 27-də Laçın uğrunda gedən döyüşlərdə Şəhidlik zirvəsinə ucalmış, İkinci Fəxri xiyabanda torpağa tapşırılmışdır.**

Şəhidin anası Leyla Hümbətova oğlunun torpaqlarımızın işğaldan azad olunması üçün gözünü qırpmadan canını belə verəcəyini bildiyini deyib: "Oğlumun ən böyük arzusu torpaqlarımızın işğaldan azad olması idi. Həmişə deyirdi ki, torpaqlarımızı işğaldan azad edib üçrəngli bayrağımızı orada dalğalandıracağam. Bu arzu oğluma canı bahasına başa gəldi, amma Azad verdiyi sözü tutdu, arzusuna çatdı. Azad əsgərlərə bildiyi hər şeyi öyrədirdi. Öz üzərində çox çalışırdı. Xəyalları, məqsədləri çox idi, amma qismət...".

Tank taqım komandiri olan A.Hümbətov həyatını təhlükəyə ataraq düşmənin 5 tankını öz mövqelərimizə gətirməyə nail olub. Dəfələrlə döyüş yoldaşlarını düşmən mühasirəsindən yaralı halda çıxaran cəsur döyüşçümüz Laçın uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

Onu da qeyd edək ki, şəhidə məxsus materiallar ailəsi tərəfindən Milli Azərbaycan Tarixi Muzeyinin Vətən müharibəsi fonduna təhvil verilmişdir.

**Azad Arif oğlu Hümbətov Prezidentin müvafiq sərəncamları ilə "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalı, ölümündən sonra isə "Vətən Müharibəsi Qəhrəmanı" adı, eləcə də "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.**

## Vacib yüksəkliyin alınmasında Sahibin xidməti əvəzsizdir



**Vətən müharibəsində qəhrəmanlıq göstərərək Şəhidlik zirvəsinə ucalan döyüşçülərdən biri də baş leytenant *Sahib Yusif oğlu Şirəliyevdir*. Masallı rayonunun Ərkivan qəsəbəsində anadan olan Sahib orta təhsilini Bakı şəhərində yerləşən Ağdam rayon 28 nömrəli tam orta məktəbdə alıb. Əlaçı olub, nizam-intizamı, fərdi xüsusiyyətləri ilə həmyaşıdlarından seçilib. Məktəb illərində boks idman növünə, hərb sənətinə maraq göstərib. 2013-cü ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olub.**

S.Şirəliyev 2017-ci ildən Naxçıvanda Əlahiddə Ümumqoşun Ordusunun xüsusi təyinatlı zabiti kimi Vətənə qulluq edirdi. Nümunəvi xidməti, xüsusi təyinatlı qruplar arasında keçirilən yarışlarda öncüllüyü ilə fərqlənib, dəfələrlə Fəxri Fərman və diplomlarla mükafatlandırılıb.

Valideynləri onun hələ yeniyetməlik illərindən cəsurluğu, vətənpərvərliyi ilə seçildiyini vurğulayırlar. Atası Yusif Şirəliyev oğlu haqqında qürurla danışır: "Nəslimizdə hərbçi olmamışdı. Sahib isə uşaqlıqdan, məktəb illərindən hərbi vətənpərvərlik verilişlərini həvəslə izləyərdi. İllər ötdükcə oğlumda bu peşəyə maraq daha da artdı və qərarını verdi. Savadına, biliyinə görə başqa ixtisas da seçə bilərdi. Etiraf edim ki, təkid etsək də, onu fikrindən daşındıra bilmədik. Peşə seçimində qəti olan Sahiblə razılaşmalı olduq. Kursant olduğu müddətdə dəfələrlə təşəkkürnaməyə layiq görülüb. Soruşanda cavab verərdi ki, çətin də olsa, şərəfli, əsl kişi sənətidir. Naxçıvanda olanda onunla əlaqə saxlayırdım. Elə müharibə başlayan ilk gündən səbirsizlənirdi ki, tezliklə döyüşlərə qatılsın".

Şəhidin anası Şölə xanım isə oğlunu evləndirməyə hazırlaşdıqlarını, amma qismət olmadığını bildirir: "İstəyirdik ki, ailə qursun. Gözaltısı da vardı. Sahib cəbhəyə yollanandan nigaran idim, dua etməkdən başqa əlacım qalmamışdı. Nələr arzulayırdıq, nələrlə qarşılaşdıq..."

Sahibin zəngin şəxsi kitabxanası da var imiş. Bədii ədəbiyyat, xüsusilə şeir həvəskarıymış. Ailə üzvləri deyir ki, ən çox Nizami Gəncəvinin əsərlərini mütaliə edərdi.

**Şəhidin 22 yaşlı qardaşı Əli də taleyini hərb sənətinə bağlayıb. Bakı Dəmir Yolu Nəqliyyatı Texnikumunu bitirdikdən sonra həqiqi hərbi xidmətə yollanıb. Daxili Qoşunların tərkibində ilyarım xidmətdən sonra müddətdən artıq xidmət etməyə qərar verib. Əli döyüşlərdən öncə qardaşı ilə son danışığını belə xatırlayır: "Dedi ki, "ailədən muğayat ol! Çünki bilmək olmaz evə necə dönəcəyəm - qalib, qazi, yoxsa şəhid kimi". Qismətində şəhidlik varmış. Həm qardaşım, həm də yaxın dostum idi. Bir-birimizə çox alışmışdıq...".**

Sahibin xidmət etdiyi hərbi hissənin qərargah rəisi, 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordenli mayor Nəsir Zeyniyev də onun qəhrəmanlığından danışır: "Əsgər və zabit heyətimiz cəbhəyə mərhələli şəkildə göndərilirdi. Oktyabrın 11-də Hadrut istiqamətində döyüşlərə qatıldıq. Qəsəbənin və ətraf yüksəkliklərin azad edilməsində Sahib və rəhbərlik etdiyi xüsusi təyinatlı qrup xüsusi fədakarlıq göstərdi. Hadrut döyüşlərində bir neçə düşməni şəxsən özü məhv etdi. Şəhid və yaralılarımız olsa da, qarşı tərəfin sıx yerləşdiyi və güclü müdafiə olunduğu, eləcə də Hadrutu nəzarətdə saxlayan vacib yüksəkliyin alınmasında S.Şirəliyevin xidməti əvəzsizdir. Onun rəhbərlik etdiyi bu uğurlu əməliyyatdan sonra qəsəbədə bölmələrimizin şəxsi heyət və döyüş texnikasının rahat hərəkəti təmin edildi".

**Sahibin kursant yoldaşı və onunla eyni taborda xidmət edən qrup komandiri, "Hərbi xidmətlərə görə" medallı baş leytenant Minətulla Bayramov: "Qırmızı bazar istiqamətində, dağlıq-meşəlik ərazilərlə 2 gecə yol getdik. Bu əməliyyatdakı ilk tapşırığımız yaşayış məntəqəsinin giriş və çıxış qapılarını bağlamaq oldu. Qəsəbəyə çatdıqda mövqe tutduq, bərabər paylanaraq yol kənarı boyunca yerləşdik. Minamyot atəşinə tutulsaq da, ordu birləşmələrimizlə birgə düşmənə sarsıdıcı zərbələr endirdik. Hədəf qəsəbənin tam alınması idi. Qrupumuzdan 4 nəfər yaralandı, mən sağ qolumdan güllə yarası aldım - hospitala təxliyə olundum. Bütün məsuliyyət və ağırlıq Şirəliyevin üzərində qaldı".**

"Döyüşdə fərqlənməyə görə" medallı baş gizir Kamran İbrahimov: "Tuğ kəndini aldıqdan sonra kəşfiyyat işlərini yekunlaşdırıb, ərazini təmizlədik. Sonra Qarabulaq kəndini, ərazidəki yüksəkliyi işğaldan azad etdik. Yeni tapşırığa əsasən Şuşa tərəfə irəlilədik. Bir neçə gün piyada yol getdik. Şuşa-Laçın yolunun 6-7 kilometrliyində döyüşə hazırlığa başladıq. Laçın dəhlizinə çatanda səhər saat 5-in yarısı idi. Düşmənlə qızğın atışmalar zamanı yaralanan zabitimizə ilk tibbi yardımı Şirəliyev göstərdi. Saatyarımlıq şiddətli döyüşlərdə yaralı və şəhidlərimiz olsa da, dəhlizi, dəhlizin üstündəki yüksəkliyi ələ keçirdik. Ağır artilleriya atəşlərinə məruz qalsaq da, irəliləyirdik. **Hətta "Şirəliyev, irəli, yoxsa geri?" soruşduqda, o, "yalnız irəli getməliyik!",**- deyə əmr etdi. Hədəfimiz Şuşa şəhəri idi. O səmtə istiqamətləndik. Düşmən bizi tələyə salmaq istəsə də, layiqli cavablarını verdik. Onların xeyli canlı qüvvəsini və hərbi texnikasını məhv etdik. İki BMP-ni yararsız hala salaraq qənimət götürdük. Lakin, təəssüf ki, yarım saatlıq ağır vuruşda cəsur və təmkinli qrup komandirimizi, baş leytenant Sahib Şirəliyevi itirdik. Əvvəlcə elə bildim ki, qaya arxasında mövqe tutub. Çağırdım, səs vermədi. Yaxınlaşanda arxası üstə yerə uzanan cansız bədənini gördüm. Sol çiynindən yapışıb özümə tərəf çəkdim. Güllə baş nahiyəsindən dəymişdi".

Şuşa uğrunda döyüşlərdə canını qurban verən qəhrəman hərbçimiz noyabrın 14-də, doğulduğu Masallı rayonunun Ərkivan qəsəbəsində torpağa tapşırılıb. Həmyerlisi, Tovuz döyüşlərində şəhid olmuş mayor Anar Novruzovun məzarının yanında dəfn edilib.

**Şəhid baş leytenant Sahib Yusif oğlu Şirəliyev ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüşlərdə fədakarlığı, yüksək peşəkarlıqla rəhbərliyi, düşmənin canlı qüvvəsi və döyüş texnikasının məhv edilməsindəki rəşadəti və öz vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirdiyinə görə Prezidentin müvafiq sərəncamları ilə "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.**

*Səhifəni hazırladı: Aliyə SƏMƏDOVA*

# Azərbaycanda keyfiyyətli internet infrastrukturu yetərincə inkişaf etməyib



**Bir istifadəçi olaraq, hamımız bilirik ki, ölkə ərazisində verilən internetin sürəti qənaətbəxş deyil. Vətəndaşlarımız bu məsələdə bəzən provayder şirkətləri günahlandırır, bəzən isə kommunikasiya xətlərinin müasir standartlara cavab verməməsini problemin təməli kimi görürlər. Azərbaycan İnternet Forumunun prezidenti (AİF), Multimedia Mərkəzinin direktoru Osman Gündüz də internetin sürəti ilə bağlı problemin olduğunu və hələ də həllini tapmadığını təsdiqlədi. Bildirdi ki, beynəlxalq təşkilatların statistikalarına baxdıqda adambaşına düşən orta sürətə görə Azərbaycan elə də yaxşı yerdə deyil. Bunun səbəbi ondan ibarətdir ki, Azərbaycanda həm internetin əlçatanlığı ilə bağlı problemlər var. Yəni Bakıda keyfiyyətli internetə əlçatanlıq var, amma Bakı ətrafında, rayon mərkəzlərində belə əlçatanlıq yoxdur. Eyni zamanda əlçatan yerdə də keyfiyyət yoxdur, internet zəifdir, qırılmalar da çox olduğu üçün vətəndaşlar müqavilədə göstərilən sürəti əldə edə bilmir və sair. Bunun digər səbəblərindən biri də odur ki, Azərbaycanda keyfiyyətli internet infastrukturu yetərincə inkişaf etməyib. Böyük əksəriyyət, demək olar ki, 90 faiz köhnə texnologiyaların üzərindədir. Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi indi bu istiqamətdə ciddi işlərə başlayıb, yəni əvvəl əsasən inhisarçılıq, monopoliya var idi. Belə ki, yalnız özləri bu problemi həll etmək istəyirdilər, özəl provayderlərin resurslarından istifadə olunmurdu. Amma indi Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi özəl provayderlərə çağırış edib ki, gəlin birlikdə bu problemi həll edək. Hazırda bu istiqamətdə şərtlərin dəqiqləşdirilməsi prosesi gedir. Özəl provayderlər ilə müqavilələr bağlanır ki, kəndlərdə və Bakı ətrafında dövlət provayderlər ilə birlikdə xidmət göstərsin. Düşünürəm ki, bu istiqamətdə belə addımlar atılsa, biz bu problemi tezliklə həll edə bilərik. Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi 2 ilə bu problemin birdəfəlik həll olunacağını bildirib.**

Düşünürəm ki, burada dövlət provayderlərin üzərində nəzarəti gücləndirməlidir. Yəni dövlət müstəqil qurumlar ilə bir yerdə monitorinqlər keçirməli, istehlakçıların hüquqlarını qoruyan antiinhisar qurumlar artırılmalıdır. Vətəndaş gedir provayder ilə müqavilə bağlayır, gəlir ofisinə, evinə baxır ki, müqavilədə göstərilən sürəti əldə edə bilmir, vətəndaş sanki çəkidə aldadılır. Belə olan halda ən əsası da ictimai nəzarətin gücləndirilməsinə ehtiyac var. Vətəndaş öz hüququnu qorumaq üçün provayderlərə, dövlət qurumlarına, nazirliyin qaynar xəttinə müraciət edə bilər. Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi bu istiqamətdə də bir rəqəmsal həll, vahid portal hazırlayır. Yəni vətəndaşlar öz provayderini və əldə etdiyi sürəti dəyişmək üçün bir şəxsi kabinetdən istifadə edəcəklər. Belə ki, bütün provayderlərin xidməti bir nöqtədən alına biləcək və dəyişilə biləcək. Beləliklə, artıq vətəndaşın internet xidmətini, sürətini dəyişmək imkanı əldə etməsi internetin keyfiyyətinin artmasına müsbət təsir göstərən amil olacaq.

**-Osman müəllim, internet şirkətləri ödəniş qarşılığında 2, 4, 8, hətta daha çox sürət vəd etsələr də, reallıq bu rəqəmləri əks etdirmir. Buna səbəb nədir?**

-Bəli, bununla bağlı narazılıqlar çox olur. Amma vətəndaşın müqavilədə göstərilən sürətləri əldə edə bilməməsi müxtəlif səbəblərdən ola bilər. Birincisi, provayder çəkidə aldadır, müqavilədə göstərilən sürəti vətəndaşa açıq-aşkar vermir. Yəni vətəndaş 4 alacaqsa, 3 verir və sair. Bu, rəsmən qanun pozuntusudur. Və vətəndaş bununla bağlı nazirliyin qaynar xəttinə, hətta məhkəməyə də müraciət edə bilər. İnternetin sürətini ölçərək müqavilədə onlara vəd edilən internet sürətini və onlara verilən real internet sürətini ekran çəkimi etməklə, məhkəməyə sübut kimi göstərə bilər.

Vətəndaş telefon xəttinin üzərindən xidmət alırsa, onda tək provayder yox, həm də telefon xəttinin sahibi olan operator da günahkardır. Bizdə bir çox telefon xəttinə cavab verən dövlət, özəl operatorlar var. Vətəndaş birinci telefon xəttini qaydaya salmalıdır ki, normal internet ala bilsin.

**Onu da qeyd edim ki, ölkənin bir sıra yerlərində yüksəksürətli internet olmadığı üçün məcburi şəkildə telefon kabellərindən istifadə edirik. Bu isə standartlara uyğun deyil. Çünki telefon kabellərinin keçirə biləcəyi maksimum sürət 6-8 meqabit səviyyəsindədir. Dünya artıq çoxdan optik xətlərə keçib. Ona görə aydın məsələdir ki, oradakı orta sürət 60 meqabit səviyyəsindədir. Elə buna görə də digər ölkələrdən geri qalırıq. Bunun çıxış yolu isə bizdə monopoliya tamamilə aradan qaldırılmalıdır və bir çox şirkətlərə öz internet xətlərini çəkmək üçün icazə verilməlidir.**

**Gülöyşə MƏMMƏDLİ**

# Peşə təhsil sistemində yenilik müasir çağırışlara cavab verəcək

**2020-2021-ci tədris ilindən təhsilalanlara peşə təhsilini seçmək üçün daha bir keçərli səbəb verilib.**



Təhsil Nazirliyi yanında İctimai Şuranın məsul katibi İlqar Orucov bildirib ki, yüksək texniki peşə səviyyəsi üzrə peşə təhsili haqqında dövlət sənədi ali təhsil müəssisəsinə daxil olmaq hüququ yaradacaq və növbəti təhsil pilləsində ali təhsil almaq üçün əsas sayılacaq. Onun sözlərinə görə, Milli Məclisin növbəti iclaslarında "Təhsil haqqında" və "Peşə təhsili haqqında" qanun layihələrinə dəyişikliklər ediləcək. Dəyişikliyə əsasən, peşə təhsil mərkəzinə qəbul olunan şəxslərə yüksək texniki peşə təhsili ilə yanaşı, tam orta təhsil almaq hüququ da veriləcək.

**İ.Orucov əlavə edib ki, vacib dəyişikliklərdən biri də kredit sisteminin tətbiqi ilə bağlıdır. Yüksək texniki peşə təhsilini bitirmiş şəxslərə subbakalavr ixtisas dərəcəsinin verilməsi və ali təhsil müəssisələrinə qəbul hüququnun təsbit olunması yüksək texniki peşə təhsili səviyyəsi üzrə tədrisin təşkilində kredit sisteminin (yəni dərs saatlarının həcmi- bir dərs 20 saatdırsa, bu 20 kredit deməkdir) tətbiqini zəruri edir. Ali təhsil pillələri üzrə tədris Avropa Kredit Transfer Sisteminə uyğun olaraq hazırlanmış kredit sistemi ilə təşkil edilir ki, bu da təhsil pillələrində əldə edilmiş kreditlərin digər təhsil pilləsində tanınmasına imkan verir.**

Təhsil Xidmətləri Araşdırma və Təhlil Mərkəzinin rəhbəri Kamran Əsədov bildirdi ki, peşə məktəbini bitirənlərə bu imkanın yaradılması kadr hazırlığında keyfiyyəti yaxşılaşdıracaq.Təbii ki, burada həmin tələbələrdən tələb olunan şərt yükək akademik göstəricilərə sahib olmaqdır. Yəni onların ümumi ortalama göstəricisi nə qədər yüksək olarsa, onların ali təhsil müəssisələrinə, yəni öz ixtisaslarına uyğun yerlərə qəbul olmaq imkanları o qədər artıq olacaq. Artıq qarşıdakı illərdə biz peşə təhsili üzrə maraqların həddən artıq artacağını müşahidə edəcəyik. Avropada peşə məktəblərini iqtisadiyyatın əsas gücü sayırlar. Buna görə də, Qərb hökumətləri keyfiyyətli və təminatlı tədris üçün peşə məktəblərinin inkişafı üçün hər cür şərait yaradır, lazımi vəsait ayırır. Avropada hər il yeniyetmələrin 20-25 faizi peşə təhsilinə yönəlir. Azərbaycanda isə bu rəqəm 10 faizin altındadır. Hazırda edilən dəyişiklik peşə təhsilinin müasir çağırışlara cavab vermə istiqamətində mühüm addımdır.

**Təhsil eksperti əlavə etdi ki, əvvəl qüvvədə olan müddətlə peşə təhsilində təhsil alan gənc peşənin mahiyyətini və sosial əhəmiyyətini dərk etmədən onu bitirmiş olurdu. 1 il ərzində peşə təhsili alan tələbə İKT-dən istifadə etmək bacarığına, iş şəraitini təhlil etməyi, cari və yekun nəzarəti həyata keçirməyi, fəaliyyətini qiymətləndirməyi və korreksiya etməyi, işin nəticəsinə görə məsuliyyət daşımaq kimi ciddi bacarıqlara yiyələnmirdi. Komandada işləməyi və cəmiyyətdə işəgötürənlərlə faydalı ünsiyyət qurmağı bacarmırdı. Bunlara səbəb müddətin az olması idi. Çünki təhsil müddəti buna yetərli deyildi. Ona görə də peşə təhsilini bitirənlər əmək bazarının tələbinə cavab verən işçi qüvvəsinə çevrilmirdi. İndi tətbiq olunacaq qanunda müddətin artırılması peşə təhsilinin keyfiyyətinin yaxşılaşmasına gətirib çıxaracaq. Peşə təhsilinin üç pilləsi var: ilkin, texniki və yüksək peşə təhsili. Dəyişikliyə əsasən, hər üç mərhələni bitirənlər universitetə imtahansız qəbul olmaq imkanı qazanacaq. Peşə məktəblərinə 9-cu sinifdən qəbul olunanlar bu üç mərhələni 4 ilə, 11- ci sinifdən qəbul olunanlar isə 3 ilə başa vuracaq. Hər bir dərs yükü nəticəsində toplanan kreditlər yekunda orta müvəffəqiyyət göstəricisi olacaq. Kredit sistemi universitetlərdə və kolleclərdə tətbiq olunurdu, peşə təhsilində isə indiyədək tətbiq olunmurdu. Ona görə ki, burda daha çox praktik təhsildir. Məsələn, bənnalıq, saç ustalığı, dülgərlik, zərgərlik, maşın ustası, aşpaz və sairə bunların dərs krediti yox idi, müddətsiz idi. İndi isə bunları öyrənmək üçün konkret vaxt ayrılacaq. Kredit isə hamısına yox, yalnız texniki və texnologiya ixtisaslarına aid olunacaq. Heç də bütün ixtisaslar üzrə peşə məzunları universitetlərə qəbul olunmayacaqlar. Bu, yalnız texnologoya ixtisaslarını bitirənlərə aiddir. Attestat qiymətlərinə görə şagirdlər ödənişli də qəbul oluna bilərlər, ödənişsiz də.**

**Əsli ƏHMƏDOVA**

# Dünya bazarında neft və qazın qiyməti artır

## artımın iqtisadiyyatımıza təsiri necə olacaq?

**Dünya bazarında neftin və qazın qiymətinin qalxmasının ölkəmiz üçün müsbət tərəfləri olduğu kimi, mənfi tərəfləri də var. Belə ki, ölkəyə iri pul kütlələrinin daxil olması, gəlirin yüksəlməsi ölkə üzrə inflyasiyanın səviyyəsinin nəzərdə tutulandan daha çox artmasına gətirib çıxardır.**

*Bu prosesin qarşısının alınması üçün dövlət nə kimi addım atmalıdır? Nə etmək olar ki, ölkə az zərərlə problemin öhdəsindən gələ bilsin?*



**"Hökumətin bir nömrəli vəzifəsi sosial ehtiyacı olan vətəndaşların iqtisadiyyatda baş vermiş mənfi tendensiyalardan sığortalanmasıdır". Bunu iqtisad elmləri doktoru, "Bəydəmirli Xeyriyyə Fondunun" təsisçisi Nazim Bəydəmirli qəzetimizə müsahibəsində bildirdi. Dedi ki, inflyasiyadan qorunmanın ən başlıca yolu pensiyaların artırılması, eyni zamanda dövlət büdcəsindən maliyyələşən müəssisə və təşkilatlarda çalışan işçilərin vəzifə maaşlarının artırılmasından ibarətdir: "Eyni zamanda iqtisadi fəaliyyəti də stimullaşdırmaq lazımdır ki, ölkə daxilində daha çox mal bolluğu yaransın, insanlar xarici faktorlardan əziyyət çəkməsinlər. Çünki ölkədə istehlak mallarından ciddi asılılıq var. Bunun da qarşısını almağın yolu ölkənin daxilində iqtisadi prosesləri stimullaşdırmaq və sahibkarlığa dəstək olmaqdır. Onu da qeyd edim ki, dövlət şirkətlərinin məhsulların maya dəyərinin şişirdilməsi nəticəsində tariflər yüksəlir. Tariflər yüksəlirsə, deməli, qiymət artımı yüksəlir, qiymət artımı da inflyasiyanı stimullaşdırır. Yəni bunların hamısı zəncirvari bir-birinə bağlıdır".**

**İqtisadçı-ekspert Rəşad Həsənov** da məsələyə münasibət bildirdi: "Burda iki əsas istiqamətdə iş görülməlidir. Birincisi, bazarda neft, enerji pullarının daxil olması müəyyən qədər məhdudlaşdırılmalı, büdcə transfertlərinin həcmi azaldılmalıdır. Büdcə xərcləmələrinin azaldılması isə inflyasiya təzyiqlərini müəyyən qədər neytrallaşdıra biləcəkdir. İkincisi isə, bazarın liberallaşdırılmasıdır. Liberal iqtisadi modelə keçid, bazarın liberallaşdırılması, rəqabətin dərinləşdirilməsi dolayısı ilə bazarda qiymətlərin optimal səviyyəsinin əldə olunması deməkdir.

Çünki bu gün bazarda qiymətlər kifayət qədər yüksək mənfəət norması tətbiq edilməklə formalaşır. Bu isə inhisarçılığa gətirib çıxarır. Belə bir misal çəkim, bu gün 10 manatlıq məhsul bazarada 6 manata satılır, yəni 40 faiz artığına. Əgər rəqabət olsa hətta inflyasiya şəraitində qiymət artımı bu səviyyəyə yüksələ bilməz.

**R.Həsənov dedi ki, dünya üzrə neft və qazın qiymətinin qalxması büdcəyə təsir edə bilər. Bu təsir nəticəsində də hökumət ekspansiya siyasətinə keçə bilər: "Amma deyim ki, neftin qiymətinin bahalaşmasının büdcə xərclərinə təsirləri çox cüzidir. Çünki bu, daha çox məhz neft sektorundan daxil olan vergilərdən yaranmış artımdan qaynaqlanan bazadır. Bu, büdcənin təxminən 6-7 faizini təşkil edir. Neft sektorundan daxil olan pullar, belə deyək, dolur hovuza, hovuzdan müəyyən edilmiş həddə transfert olunur Neft Fonduna, ordan da büdcəyə. Hökumət də daha çox ehtiyatlı davrandığı üçün büdcəyə ayrılmaları ilin yarsında deyil, növbəti ilin başlanğıcında həyata keçirə bilər.**

**Aliyə SƏMƏDOVA**

# Oktyabrın 20-si Ümumdünya Osteoporozla Mübarizə Günüdür

**1997-ci ildən etibarən hər il oktyabrın 20-si Ümumdünya Osteoporozla Mübarizə Günü kimi qeyd edilir.**

Həmin tarix Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) təşəbbüsü ilə profilaktika, diaqnostika və metabolik sümük xəstəliklərinin müalicəsi haqqında cəmiyyəti məlumatlandırmaq məqsədilə təsis edilib.

**Osteoporoz sümük toxumasının zədələnərək nazikləşməsi, sümüklərin deformasiyası və sınığı ilə nəticələnən metabolik xəstəlikdir. Bir qayda olaraq tədricən yaranır və zaman keçdikcə inkişaf edir. Osteoporoz heç bir sərhəd tanımadan artan qlobal problemdir. ÜST-ün məlumatına görə, xəstəlik yayılma dərəcəsinə görə ürək-damar, onkoloji və şəkərli diabet xəstəliklərindən sonra infeksiyasız xəstəliklər sırasında dördüncü yeri tutur. Statistikaya görə, dünyada 50 yaşdan sonra hər üç qadından və hər beş kişidən biri osteoporozdan əziyyət çəkir.**

Başlanğıc mərhələdə osteoporoz qətiyyən özünü büruzə vermir, hətta onun başlanmasından on il keçəndən sonra da orqanizmdə gedən dəyişikliklərdən xəbər tutmaq olmur. Sümük kütləsinin əriməsi ağrı ilə müşayiət olunmur, bəzən kürəyin aşağı hissəsində sızıltılar əmələ gəlir. Problemin nəticəsi olaraq sümük qatı əriyir və davamlı sınıqlarla müşahidə edilir.

Sümük əriməsinin miqdarı dörddəbirə çatanda güclü osteoporoz başlayır. Xəstəliyin fəsadları olaraq fəqərələrin deformasiyası, hərəkət vaxtı artan bel ağrısı, sümüklərin çoxlu sınıqları meydana çıxır. Osteoporozu xəstənin ümumi rentgeni əsasında müəyyən etmək olur.

**Osteoporozun profilaktikası üçün ilk növbədə artıq çəkidən xilas olmaq lazımdır. Pəhriz gözlənilməli, duzlu və ətli qidalar minimuma endirilməlidir.**

Xəstəliyin inkişafının qarşısını almaq üçün həkimin təyin etdiyi tibbi vasitələrlə yanaşı, dayaq-hərəkət sisteminin yığılıb-açılmasına yönəldilən müalicəvi gimnastik hərəkətlər də məsləhət görülür.

**İnkişaf edən osteoporozu dərmanla sağaltmaq mümkün deyil. ÜST dünyanın bütün ölkələrinin həkimlərini xəstəliyin profilaktikası ilə məşğul olmağa çağırır. Məhz profilaktik tədbirlər vasitəsilə insan orqanizmindəki sümük toxumasının zəifləməsini ləngitmək mümkündür.**

# Dairəvi iqtisadiyyat işçilər və cəmiyyətlərimiz üçün güclü bir sosial ədalət ölçüsünə malikdir




**Dairəvi iqtisadiyyat Avropa Yaşıl Sövdələşməsinin ("European Green deal") əsas hissəsidir. Bu, iqtisadi sahələrdə çalışan işçilər üçün təhlükəli ola bilər. Araşdırma məqsədilə Avropada sahələrarası sosial tərəfdaşlar iş proqramının bir hissəsi olaraq bu təsirləri öyrənmişlər. Nəticələr veb-seminarda təqdim edilib və tullantıların idarə edilməsi sektorunda məşğulluğa müsbət təsir göstərdi. Bu, Avropa İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqları Birliyinin (EPSU) əvvəlki tədqiqatlarının nəticələrini və mövqeyini təsdiqləyib. Layihənin tövsiyələri işəgötürənlərə və dövlət orqanlarına ünvanlanıb.**

Avropa Komissiyası üçün dairəvi iqtisadiyyat, məhsulların, materialların və resursların iqtisadiyyatda mümkün qədər uzun müddət saxlanılması və tullantıların minimuma endirilməsi deməkdir. Bu, tullantıların iyerarxiyasına uyğundur - qarşısının alınması, azaldılması, təkrar istifadəsi, geri çevrilməsi (materialın bərpası) və bütün bunlar mümkün olmadıqda yandırılması (istilik bərpası üçün). EPSU bunu dəstəkləyir. Tullantılara xammal kimi baxır. İstifadə olunan bütün materiallar, bir məhsulda istifadə edildikdən sonra başqa bir məhsulda faydalı olmalı və yalnız qida kimi təbiətə qayıtmalıdır. Ətraf mühitə və ya insanlara heç bir zərər olmamalıdır, buna görə də dairəvi iqtisadiyyat işçilər və cəmiyyətlərimiz üçün güclü bir sosial ədalət ölçüsünə malikdir. İctimai şirkətlər yeniliklər və dəyişiklik etmək üçün nəzərdə tutulmuşdur. Bu, bərabərsizliyi aradan qaldırmaq məqsədi daşıyır, insan və həmkarlar ittifaqı hüquqlarına hörmət etməyimizi tələb edir.

**EPSU-nun Baş katibi Jan Villem Qoudrian** oktyabrın 14-də keçirilən vebinarda çıxışında Avropa Komissiyasının dairəvi iqtisadiyyata yanaşmasında bu sosial ölçünün olmadığını vurğulayıb.

**"Dairəvi iqtisadiyyat" layihəsi çərçivəsində dairəvi məşğulluq təşəbbüsü layihəsindən Ester Qudvin Braun sosial tərəfdaşların cəlb edilməsinin əhəmiyyətini söyləyib. Avropanın sahələrarası sosial tərəfdaşları məşğulluq, bacarıq, sektorun rəqabət qabiliyyəti, sağlamlıq və təhlükəsizlik, işin formaları və təşkili məsələlərini araşdıran birgə layihənin nəticələrini təqdim edib. Buraya "Abfallwirtschaftsbetrieb München" (AWM Munich) şirkəti və onun dairəvi iqtisadiyyatda rolu daxildir. Seminarda İtaliyanın ictimai su təchizatı şirkəti "Gruppo Cap"ın (Milan) müsbət təcrübəsi təqdim edilib. Digər natiqlər arasında "Euratex"in nümayəndəsi, İndustriAll -dan olan həmkarlar ittifaqı fəalları (istehsal, tekstil və avtomobil sənayesində aparılan təhlillər barədə) və başqaları olub. Çıxışlarda bütün sahələrdə ictimai xidmətlərin əhəmiyyəti vurğulanıb.**

Qeyd olunub ki, EPSU-nun üzvü olan təşkilatlar Avropadakı su təchizatı və tullantıların utilizasiyası sektorunda çalışan işçiləri birləşdirir. Üzvlərimiz ictimai sahələrdə (əsasən bələdiyyə), qeyri-kommersiya təşkilatlarında (emal və təmir ilə məşğul olan kooperativlər) və özəl çirkab sutəmizləyici sektorda fəaliyyət göstərirlər. Bu, həm kiçik şirkətlərə, həm də iri transmilli şirkətlərə aiddir. Bəzi Avropa ölkələrində qeyri-rəsmi sektor da mövcuddur. Avropada təxminən bir milyon insanın qeyri-rəsmi emal və təkrar istifadə iqtisadiyyatında məşğul olduğu təxmin edilir. Əsas problem ondan ibarətdir ki, keyfiyyətli iş yerlərini, layiqli ödənişi və iş şəraiti, yüksək sağlamlıq və təhlükəsizlik standartlarını təmin etməli, sosial dempinqlə mübarizə aparmalı və sosial dialoqu inkişaf etdirməliyik. Bu narahatlıqlar EPSU-nun dairəvi iqtisadiyyatda təhlükəsiz iş yerləri və tullantıların idarə olunmasında dairəvi iqtisadiyyat haqqında bir sıra hesabatlarında vurğulanır.

**Tullantıların emalı sektorunda məşğulluq artır. Biz keyfiyyətli iş yerlərini, layiqli əməkhaqqı və iş şəraiti təmin etməli və sosial dempinqlə mübarizə aparmalıyıq. Bəzi ölkələrdə şirkətlər və işəgötürənlər kollektiv müqavilələrə riayət etmirlər. Risklərin qiymətləndirilməsinə, eləcə də tullantılarla məşğul olan həm rəsmi, həm də qeyri-rəsmi işçilərin sağlamlığına və təhlükəsizliyinə lazımi diqqət yetirilmir. Pandemiya bu işin əhəmiyyətini aşkar göstərdi. Avropa Birliyi bunu yetərincə nəzərə almır. Bundan başqa, dairəvi iqtisadiyyatda Avropanın aparıcı mövqeyi tullantıların idarəedilməsi sistemlərinin daha aşağı əmək və ekoloji standartlara malik inkişaf etməkdə olan ölkələrə ixracından asılı idi.**

*Avropa həmkarlar ittifaqının sükanı arxasında bir italiyalı olaraq, mənim üçün bu meydanda Avropada çalışan bütün işçilərin dəstəyini ifadə etmək böyük şərəfdir.*

*Son bir neçə gün ərzində Avropanın əksər ölkələrində həmrəylik nümayişləri keçirilir.*

*Avropa həmkarlar ittifaqı hərəkatı, "CGIL"ə və eləcə də bütün İtaliya həmkarlar ittifaqına edilən hücuma qarşı bir mövqe nümayiş etdirir.*




# "Aydın və yüksək səslə demək istəyirik: həmkarlar ittifaqı kor deyil"

**Hər şeyi öz adı ilə adlandırmalıyıq, bu, demokratiyanın simvollarından biri olan həmkarlar ittifaqına qarşı faşist hücumu idi. Həmkarlar ittifaqı yarandığı gündən müasir demokratiyaların qurulmasına öz töhfəsini vermişdir. Nasist faşizmə qarşı müqavimətdə və diktaturaya qarşı üsyanda fəal iştirak edib.**

Təsadüfi deyil ki, müəyyən pozucu qrup dəstələr baş qaldıranda ilk növbədə demokratiyanın simvolları olan azad mətbuata və həmkarlar ittifaqı hərəkatına təzyiq göstərilir.

Bütün Avropada ultrasağçı hərəkatlar bizim cəmiyyətlərin əsas dəyərlərini pozmaq üçün pandemiyadan və insanların qorxusundan istifadə edir.

Dünənə qədər onların hədəfləri miqrantlar, ən həssas insanlar olub - bu gün vaksinlərdir və ictimai sağlamlığı qorumaq, işə qayıtmaq, iqtisadiyyatımızı yenidən başlatmaq və cəmiyyətlərimizi qorumaq üçün lazım olan tədbirlərdir.

Bu gün, keçmişdə olduğu kimi, populist və son dərəcə sağçı hərəkatlar fəhlələrin diskomfortundan, təcriddən və sosial qəzəbdən istifadə etməyə, işçiləri bir-birinə qarşı qoymağa, onların uydurma niyyətlərini artırmağa, azad həmkarlar ittifaqının əsas maneələrdən biri olduğu avtoritar model qurmağa çalışırlar.

**Bu populist və neofaşist hərəkatlar getdikcə Avropada yayılır, əmək dünyasına da sızırlar, Avropa Parlamenti də daxil olmaqla, bir çox parlamentlərdə yer qazandılar, bəzi ölkələrdə hökumətdə yer tutmağı bacardılar.**

Hakimiyyətə gəldikləri zaman bütün populist ittihamları günəşli havada qar kimi əriyib yoxa çıxdı və əsl simalarını göstərdilər: avtoritar neoliberalizm, böyük millətlərin mənfəətinə xidmət edən, əməkhaqqının azaldılması, sosial təhlükəsizlik sistemlərinin, insan və əmək hüquqlarının ləğv edilməsi və sairə.

Və yenə də təzyiqlə üzləşən ilk kateqoriyalar azad mətbuat, həmkarlar ittifaqı, qadınlar, miqrantlar və başqaları oldu. Onlara qarşı ayrı-seçkilik və təqib tədbirləri həyata keçirildi.

**Sağçı müdafiəçilərə, yeni minilliyin bu faşistlərinə açıq şəkildə demək istəyirik, əmək dünyasından avtoritar və zorakı məqsədləri üçün istifadə etmələrinə icazə verməyəcəyik.**

Bu gün işçi hərəkatının demokratik və zorakı olmayan gücünü nümayiş etdirmək üçün buradayıq.

Ancaq aydın və yüksək səslə demək istəyirik, həmkarlar ittifaqı kor deyil.

Həmkarlar ittifaqı pandemiyanın faciəsinə və işçilərə vurulan ziyana göz yummur.

**Həmkarlar ittifaqı qloballaşma fəlakətləri, maliyyə spekulyasiyaları, əvvəlki iqtisadi böhran və sonra sərt qənaət siyasəti ilə əlaqədar olaraq keçmişdə baş verənləri də unutmayıb, hansı ki, maaşların azalmasına, kollektiv sövdələşmələrin pozulmasına, ictimai xidmətlərin və sosial təminat sistemlərinin məhv olmasına gətirib çıxarıb.**

Həmkarlar ittifaqı bu yanlış siyasətin dəhşətli bərabərsizliyə, sosial təcrid və yoxsulluğa gətirib çıxardığını unutmur - bu siyasət milyonlarla işçini, xüsusilə gənc insanları və qadınları çətin durumda buraxdı.

**Təəccüblü deyil ki, bütün bunlardan sosial qəzəb yaranır, bu da vaksin olmaması kimi ekstremal nəticələrə gətirib çıxarır.**

Amma bu narahatlığı başa düşmək məcburiyyətindəyik. Biz bu problemlərin konkret həllinin axtarışı üçün məsuliyyət daşıyırıq.

Pandemiya zamanı həmkarlar ittifaqı işçilərin sağlamlığını və iş yerlərini qorumaq qabiliyyətinə malik idi.

**İtaliyada və digər Avropa ölkələrində biz əsas işçilərin müdafiəsi, işə nizamlı və təhlükəsiz qayıdışın təmin edilməsi üçün əməyin mühafizəsi və təhlükəsizlik texnikası üzrə protokollar imzaladıq.**

Bu gün əvvəlki kimi təhlükəsizlik uğrunda, ölüm hallarına və işdə bədbəxt hadisələrə qarşı mübarizə aparılır.

**Peyvəndlərin hamı üçün universal və əlçatan olması üçün çalışmaq həm də mübarizədir. Həmkarlar ittifaqları beynəlxalq miqyasda patentlərin dayandırılmasına nail olmağa, Avropada və dünyada vaksinlərin texnoloji və istehsal gücünü artırmağa sadiqdir. Çünki inanırıq ki, peyvəndlər pandemiyadan yeganə real çıxış yoludur.**

***Luka VİSENTİNİ,***
***Avropa Həmkarlar İttifaqları Konfederasiyasının Baş katibi***

# Bu, ümumi sosial müdafiəyə, layiqli işə, yaşıl və ədalətli keçidə investisiyaları artıracaq

**Beynəlxalq Əmək Təşkilatının (BƏT) Baş direktoru Qay Rayder pandemiyadan sonra insan yönümlü bərpanı təmin etmək və əhalinin sürətlə dəyişən əmək dünyasının çağırışlarını qarşılaması üçün dünya ölkələrinə müraciət ünvanlayıb. Müraciətdə dünya ölkələri ötən ay keçirilən Baş Assambleya zamanı BMT Baş katibinin BƏT ilə birlikdə başlatdığı məşğulluq və sosial müdafiə sahəsində qlobal sürətləndiricini dəstəkləməyə çağırılıb. Bu, ümumi sosial müdafiəyə, layiqli işə, yaşıl və ədalətli keçidə investisiyaları artıracaq.**



Q.Rayder Beynəlxalq Valyuta Fondunun (BVF) və Dünya Bankı Qrupunun illik yığıncaqlarındakı məruzələrində pandemiyanın ən həssas təbəqə, xüsusən də qadınlar, qeyri-formal iqtisadiyyat işçiləri və uşaqlar üçün dağıdıcı olduğunu deyib. Həmin insanların yaşadıqları yerdən asılı olaraq onları tamamilə fərqli bir gələcək gözlədiyini vurğulayıb.

Bərpa vaksinlərə çıxış, büdcə potensialı, artan rəqəmsal boşluq və gözlənilən borc böhranı təhlükəsinə hökumətlərin reaksiya vermək qabiliyyətinə görə inkişaf etmiş və inkişaf etməkdə olan iqtisadiyyatlar arasında böyük fərqlərin yaranması ilə son dərəcə qeyri-bərabər olur. Bu, özünü bərpanı təhlükə altına alan, inam və həmrəyliyi pozan böyük bir fərq yaradır.

**Onun sözlərinə görə, 2020-ci ildə hesablamalara əsasən, dünyada ümumi iş saatının 8,8 faizi itirilib. Bu, bir il ərzində 255 milyon işçinin tam iş günü ilə məşğul olduğu saatların sayına bərabərdir.**

Bütün dünyada hökumətlər insanların sağlamlığı, məşğulluğu və gəlirlərini qorumaq üçün məşğulluq və sosial müdafiə sahəsində misilsiz tədbirlər görüblər. Lakin bu tədbirlər böhranın bütün nəticələrini yumşaltmaq üçün kifayət deyil və dünya əhalisinin 53,1 faizi ( təxminən 4,14 milyard insan) tam müdafiəsiz qalıb.

**BƏT-in Baş direktoru ölkələri insan hüquqları prinsiplərinə və beynəlxalq sosial təminat standartlarına uyğun universal, hərtərəfli, adekvat və davamlı sosial müdafiə sistemlərinə sərmayə yatırmaqla sosial müdafiəyə doğru iri addımlarla irəliləməyə çağırıb.**

Həmrəylik göstərmək və ümumi sosial müdafiəyə, layiqli işə və gender bərabərliyi cəmiyyətinə investisiyaları artırmaq vaxtıdır.

**İnkişafın maliyyələşdirilməsi təşəbbüsü çərçivəsində əldə olunan nailiyyətlər yalnız gözlənilən borc böhranının həlli üçün deyil, həm də inklüziv, dayanıqlı bərpaya investisiyaların sərbəst buraxılması üçün də irəli çəkilməli, BVF-nin misli görünməmiş şəkildə 650 milyard ABŞ dolları həcmində borcalma hüquqlarının ehtiyacı olan ölkələrə ayrılmasına yönəldilməlidir.**

BƏT-in Baş direktoru həmçinin layiqli iş yerləri yaratmaqla iqlim dəyişikliyinə qarşı mübarizədən də danışıb. Qeyd edib ki, daha dayanıqlı və diversifikasiya edilmiş iqtisadiyyata investisiyalar, eləcə də məhsuldar məşğulluq üçün yeni imkanların yaradılması hesabına yaşıl və ədalətli keçid bütün ölkələr üçün böyük potensiala malikdir.

Q.Rayder bərpanın təmin olunması üçün BƏT-in əsas təşəbbüslərini xatırladıb: "2021-ci ilin iyununda keçirilən Beynəlxalq Əmək Konfransının 109-cu iclasında BƏT-in üzvü olan 187 ölkənin hökumət, işəgötürən və işçilərin təşkilatlarının nümayəndələri, əhatəli, dayanıqlı və davamlı olan insan yönümlü bərpa tədbirləri üçün qlobal çağırışı qəbul etdilər.

Baş Assambleyada BMT Baş katibi BƏT ilə birlikdə 2030-cu ilədək, əsasən yaşıl və qayğı iqtisadiyyatında ən azı 400 milyon iş yeri açmaq və sosial müdafiəni genişləndirmək məqsədilə qlobal sürətləndiricisini işə saldı.

**2022-ci ilin birinci yarısında BƏT üzv dövlətlərin insan yönümlü bərpa strategiyalarına, o cümlədən birgə təşəbbüslərə dəstək vermək və beynəlxalq və regional qurumlar arasında institusional mexanizmlərin gücləndirilməsi məqsədilə çoxtərəfli Forum keçirəcək".**




# Tətilin dayandırılması barədə razılığa gəliblər

**Alman İnşaat və Kənd Təsərrüfatı İşçiləri Həmkarlar İttifaqı (IG BAU) və işəgötürənlər kollektiv müqavilə yolu ilə razılığa gəliblər. Və bununla da planlaşdırılan tətilin qarşısını alıblar. Tərəflər danışıqların ikinci turunda kompromisə gəliblər. Həmkarlar ittifaqının razılaşdırdığı tarif paketi 2024-cü ilin sonuna qədər qüvvədə olacaq və işçilər üçün daha yüksək gəlir təmin edəcək, ölkənin şərq və qərbindəki mütəxəssislərin iqtisadi vəziyyətini bərabərləşdirəcək və işə gediş-gəliş müddətinə görə kompensasiya üçün sabit tariflər müəyyən edəcək.**

Almaniyanın Qərbindəki işçilər üçün əldə edilən razılaşma, maaşların üç mərhələdə artırılmasını nəzərdə tutur: cari ilin noyabrın 1-dən 2 faiz, 2022-ci il aprelin 1-dən 2,2 faiz və 2023-cü il aprelin 1-dən isə 2 faiz artım. Həmçinin işçilərə 500 avro məbləğində birdəfəlik "koronavirus bonusu" verilir. Bundan əlavə, müqaviləyə əsasən, tədris üçün mükafatlar tədricən artacaq. Tikinti sahələrinə uzadılmış səyahət üçün kompensasiya tələbləri üçün, məsafə bölgəsi ilə düz töhfələr qəbul edilmişdir. Kollektiv müqavilənin tərəfləri 14 gün müddətində onu təsdiq etmək üçün vaxtı var.

"İşçilər üçün ədalətli əməkhaqqı ilə bağlı fikirlərimiz yüksək idi, amma biz bu kompromislə razılaşa bilərik", -deyə "IG BAU" həmkarlar ittifaqının sədri Robert Feiqer bildirib.

**Səhifəni hazırladı: Azər MUSTAFAYEV**

ülfat
AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARININ QƏZETİ
Son səhifə
CÜMƏ AXŞAMI, 21 OKTYABR 2021-Cİ İL / № 39 (1257)


## Dağılmış binaların qalıqları üzərinə gül dəstələri qoymuşlar



**Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin əməkdaşları Gəncə şəhərində olmuş 44 günlük Vətən müharibəsinin gedişində ağır silahlardan açılan atəşlə viranəyə çevrilmiş yaşayış məhəllələrini ziyarət etmişlər.**

**Faciə zamanı həyatını itirmiş gəncəlilərin xatirəsinə ehtiram əlaməti olaraq dağılmış binaların qalıqları üzərinə gül dəstələri qoymuşlar.**

## Qazinin 25 yaşı qeyd olundu

**Vətən müharibəsində iştirakına görə və anadan olmasının 25 illiyi münasibətilə Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzinin Təlim-tədris şöbəsinin metodisti, qazi Kamran Davud oğlu Həmzəyev Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsi tərəfindən Fəxri Fərman və pul mükafatı ilə təltif olunmuşdur.**



# "Tunar həm də bizə əmanətdir"



**Oktyabrın 17-də Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Tovuz Rayon Komitəsinin sədri Flora Pənahova və komitə əməkdaşları Vətən müharibəsində şəhid olan Tural İsrayıl oğlu Sarıyevin ailəsini ziyarət ediblər. Şəhidin anası Qənirə xanıma, həyat yoldaşı Yetər xanıma, ikiyaşlı Tunar balasına qonaq olublar. Gözlərində kədər, həsrət açıq- aydın görünsə də, o, oğlu barədə qürurla danışdı: "Bu gün Turalın Şəhidlik zirvəsinə ucaldığı gündür. Oğlumun anım günündə bizimlə bir yerdə olduğunuza görə, çox sağ olun", - dedi. Sonra əlavə etdi biz onu uşaqlıqdan zəhmətə alışdırmışdıq. Ətrafdakılara hörmət- ehtiramla yanaşırdı, elini- obasını sevirdi, doğru- dürüstlüyün təəssübünü çəkməyi öyrətmişdik. Hacılar kənd orta məktəbində texniki işçi ştatında işləyirdi. İş yerində yaxşı da hörməti vardı. Oğlunu çox sevirdi. Onunla nəfəs alırdı. Buna baxmayaraq, Vətən müharibəsi başlayanda könüllü olaraq ordu sıralarına yazıldı. Oğlunu bizə əmanət edib getdi. Ara-sıra telefon danışığımız olurdu. Üstüörtülü olsa da, ordumuzun zəfərləri barədə məlumat verirdi. Heç vaxt da "mən" demirdi. "Biz" deyirdi. Biz filan qədər düşməni məhv etdik. Filan yeri düşməndən azad etdik, çox sayda hərbi texnikasını metalloma döndərdik..."**

Ana susdu. Qonaqların diqqəti ananın titrəyən dodaqlarına zillənmişdi. "Tural balam Cəbrayıl uğrunda gedən döyüşlərdə... Şəhidlik zirvəsinə ucaldı",- dedi.

Qənirə ana bildirdi ki, oğul itkisi böyük, əvəzsiz olsa da, onu yaşadan səbəblər də az deyil. İlk növbədə nəvəsi Tunarın adını çəkdi. Sonra oğlunun qanının yerdə qalmamasının, uğrunda öldüyü torpaqların mundar ermənilərdən geri alındığının təsəlli yeri olduğunu söylədi. Onu da qeyd etdi ki, "dövlətimizdən, ictimai təşkilatlardan, eldən - obadan gördüyüm ehtiram, xətir- hörmət Turalımın əbədiyaşar olduğuna məni inandırır".

**Rayon komitəsinin sədri Flora xanım Qənirə anaya belə bir böyük ürək sahibi, əsl vətənpərvər övlad tərbiyə edib böyütdüyü üçün təşəkkürünü bildirdi: "Turalı biz də yaxşı tanıyırdıq. O, bizim ittifaqın üzvü idi. İttifaqın üzvü kimi onun doğmalarına, şəxsən sizə, balaca Tunara qayğı borcumuzdur. Tunar təkcə Sizə deyil, həm də bizə əmanətdir. Bu əmanətin layiqli övlad kimi boya- başa çatmasında bizim də xidmətlərimiz olacaq"- dedi.**

# Qüdrət muzeyi



**Azərbaycan Memarlıq və İnşaat Universiteti (AzMİU) Tələbə Həmkarlar İttifaqı Komitəsinin təşəbbüsü ilə bir qrup fəal tələbə Hərbi Qənimətlər Parkında olub.**

Tələbələr açıq səma altında salınan parkda 44 günlük Vətən müharibəsi zamanı düşməndən qənimət götürülən hərbi texnika, ermənilərin qoyub qaçdığı atıcı silahlar, ağır texnikalar, raket kompleksləri, hərbi nəqliyyat və digər sursatlarla yaxından tanış olublar. Azərbaycan Silahlı Qüvvələrinin işğaldan azad olunan torpaqlarda düşməndən qənimət götürdüyü 2000-dən çox avtomobilin nömrə nişanından hazırlanan lövhə də tələbələrin marağına səbəb olub.

Qeyd edək ki, Hərbi Qənimətlər Parkında ümumilikdə 300-dən çox eksponat, o cümlədən 150-dək ağır texnika, tanklar, döyüş maşınları, artilleriya qurğuları, zenit-raket kompleksləri, atıcı silahlar, hərbi nəqliyyat sərgilənir. Təqdim edilən eksponatlar, 10 səddən ibarət müdafiə sistemi, sığınacaqlar, hərbi kazarmalar, Vətən müharibəsinin gedişatı barədə məlumatlar Azərbaycana Zəfər qazandıran döyüşləri bir daha göz önündə canlandırmağa geniş imkan yaradır. Hərbi Qənimətlər Parkı dövlətimizin gücünün, Azərbaycan Silahlı Qüvvələrinin qüdrətinin, tarixi Qələbəmizin dünyaya sübutudur.



## Müstəqilliyin Bərpası Gününə həsr olunmuş yarışma keçirilib

**Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) Tələbə Həmkarlar İttifaqı Komitəsinin dəstəyi və "İqtisadçı" intellektual klubunun təşkilatçılığı ilə 18 Oktyabr- Müstəqilliyin Bərpası Gününə həsr olunan "Nə? Harada? Nə zaman?" intellektual yarışı keçirilib.**

Tələbələr arasında keçirilən yarışda 30 komanda iştirak edib. "Prometey" komandası 32 xalla qalib adını qazanıb. İkinci yerə "Replicants", üçüncü yerə "Hell Bells" komandası layiq görülüb.

**Qalib komandaların hər bir üzvünə kubok, diplom, pul mükafatı və medallar təqdim olunub.**

## "Ən yaxşı natiqlər" adına layiq görülüblər

**Azərbaycan Tibb Universiteti (ATU) Tələbə Həmkarlar İttifaqı Komitəsinin (THİK) Debat Klubu tərəfindən 18 Oktyabr - Müstəqilliyin Bərpası Gününə həsr olunmuş XXI daxili turnir keçirilib.**



Turnirin açılış mərasimində çıxış edən universitetin THİK sədri Elvin Kərimli və THİK-in Debat Klubunun sədri Məhəmməd Məmmədov Müstəqilliyin Bərpası Günü, onun tarixi haqqında məlumat verib, bu münasibətlə keçirilən yarışma barəsində danışaraq iştirakçılara uğurlar arzulayıblar.

14 komandanın iştirakı ilə keçirilən turnirdə birinci yeri "Yada Sal Məni" komandası tutub.

**Ümumilikdə 42 nəfərin iştirak etdiyi turnirdə 11 natiq fərqlənərək "Ən yaxşı natiqlər" adına layiq görülüb.**

# Hüquq məsləhətxanası

**Sosial iş yeri nədir? Bu barədə məlumat verməyinizi xahiş edirəm.**

**Ramin MƏMMƏDOV, Qəbələ rayonu.**

- "Məşğulluq haqqında" qanunun 1.1.21 -ci maddəsinə əsasən, sosial iş yeri - işaxtaranlar və işsiz şəxslərin məşğulluğunu təmin etmək və işəgötürənləri həvəsləndirmək məqsədilə işəgötürənin vakansiya bankına təqdim olunmuş boş iş yeri üzrə işçinin əməkhaqqının bir hissəsinin Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi tərəfindən işsizlikdən sığorta vəsaiti hesabına maliyyələşdirilən iş yeridir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 8 iyul tarixli 244 nömrəli Qərarı ilə təsdiq edilmiş "Sosial iş yerlərində işçilərin əməkhaqqının bir hissəsinin Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən maliyyələşdirilməsi Qaydası"na əsasən əməkhaqqının işsizlikdən sığorta vəsaiti hesabına maliyyələşdirilən hissəsinin məbləği Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi tərəfindən əvvəlki il üçün müəyyən olunmuş ölkə üzrə orta aylıq nominal əməkhaqqından çox olmamaq şərtilə işəgötürənin ştat vahidi üzrə nəzərdə tutulmuş əməkhaqqının və əməkhaqqından tutulmaların (əməyin ödənişi fondundan hesablanan məcburi dövlət sosial sığorta haqqı, işsizlikdən sığorta haqqı, istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqı) 50 faizini təşkil edir.

Sosial iş yerlərində 2 (iki) ildən az olmayan müddətə bağlanılan əmək müqaviləsi ilə işə götürülmüş işçilərin əməkhaqqının Agentlik tərəfindən maliyyələşdirilən hissəsi 3 (üç) aydan az və 12 (on iki) aydan çox olmur.

Əməkhaqqı sistemində nəzərdə tutulan mükafatlar, əməkhaqqına əlavələr, artımlar (əmsallar), habelə iş vaxtından kənar vaxtlarda görülən işlərə görə verilən ödəmələr və digər ödənişlər Azərbaycan Respublikasının Əmək Məcəlləsi ilə müəyyən edilmiş qaydada işəgötürənlərin vəsaiti hesabına maliyyələşdirilir.

Sosial iş yerləri üzrə əməkhaqqının məbləği işəgötürənin eyni vəzifə (peşə) üzrə digər iş yerlərindəki əməkhaqqının məbləğinin 10 (on) faizindən çox fərqlənə bilməz.

Hər bir işəgötürən üzrə sosial iş yerlərinin sayı həmin işəgötürənin işçilərinin ümumi sayının 20 faizindən, lakin hər 1 (bir) işəgötürən üzrə 10 (on) sosial iş yerindən çox ola bilməz.

Onu da qeyd etmək lazımdır ki, sosial iş yerlərinin təşkili zamanı əlilliyi olan şəxslərə, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara, şəhid ailəsinin üzvlərinə, gənclərə, cəzaçəkmə yerlərindən azad edilmiş şəxslərə və 1 (bir) ildən artıq işsiz kimi qeydiyyatda olan şəxslərə üstünlük verilir.

**İşlədiyim müəssisədə ixtisar aparılır. Mənə də xəbərdarlıq edilib, 4 həftə ərzində özümə iş tapmalıyam. Amma mən maraqlanmışam, deyirlər ki, xəbərdarlıq 2 ay qabaqcadan edilməli idi. Bu məsələni mənim üçün aydınlaşdırmağınızı xahiş edirəm.**

**Sevda HƏSƏNOVA, Bakı şəhəri.**

- Əmək Məcəlləsinə 31 may 2017-ci ildə edilən dəyişikliyə qədər işçilərə edilən xəbərdarlıq, müddətli iş saatında asılı olmayaraq, iki il idi. Bu dəyişikliklə işçilərin sayı azaldığı və ya ştatları ixtisar olunduğu zaman işçilərə tətbiq edilən həm rəsmi xəbərdarlıq müddəti, həm də ödənilən işdənçıxarma müavinətinin məbləği dəyişdirildi. Belə ki, Məcəllənin 77-ci maddəsinə əsasən, işçilərin sayı azaldıqda və ya ştatları ixtisar olunduqda işəgötürən tərəfindən əmək müqaviləsi ləğv edilməzdən əvvəl işçi işəgötürən tərəfindən həmin işəgötürənlə bağlanmış əmək müqaviləsinə (əmək müqavilələrinə) uyğun olaraq müəyyən olunan əmək stajından asılı olaraq aşağıdakı müddətlərdə rəsmi xəbərdar edilməlidir:

-bir ilədək əmək stajı olduqda - azı iki təqvim həftəsi;
-bir ildən beş ilədək əmək stajı olduqda - azı dörd təqvim həftəsi;
-beş ildən on ilədək əmək stajı olduqda - azı altı təqvim həftəsi;
-on ildən çox əmək stajı olduqda - azı doqquz təqvim həftəsi.

*Qeyd edilən səbəbdən əmək müqaviləsi ləğv edildikdə işçiyə işəgötürən tərəfindən onunla bağlanmış əmək müqaviləsinə (əmək müqavilələrinə) uyğun olaraq müəyyən olunan əmək stajından asılı olaraq aşağıdakı məbləğlərdə işdənçıxarma müavinəti ödənilir:*

-bir ilədək əmək stajı olduqda - orta aylıq əməkhaqqı miqdarında;
-bir ildən beş ilədək əmək stajı olduqda - orta aylıq əməkhaqqının azı 1,4 misli miqdarında;
-beş ildən on ilədək əmək stajı olduqda - orta aylıq əməkhaqqının azı 1,7 misli miqdarında;
-on ildən çox əmək stajı olduqda - orta aylıq əməkhaqqının azı iki misli miqdarında.

Sizə 4 həftə xəbərdarlıq müddəti əmək stajınıza uyğun olaraq edilib.

**Sorğuları şərh etdi: AHİK-in Hüquq şöbəsi**

## ALLAH RƏHMƏT ELƏSİN!

Dəmiryolçuların Müstəqil HİRK-in sədri Fəzail Bağırov və aparat işçiləri AHİK-in Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri

**NAZİM AĞAMİROVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Aviasiya İşçiləri HİRK-in sədri Mübariz Əsədov və aparat işçiləri AHİK-in Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri

**NAZİM AĞAMİROVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Sahibkarlıq, Özəl Elm və Yüngül Sənaye İşçiləri HİRK-in sədri Məhəmmədəli Salmanov və aparat işçiləri Bakı Şəhər Mənzil-Kommunal Təsərrüfatı Birliyinin BHİK sədri Əziz Babayevə həyat yoldaşı

**ƏDİLƏ xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

**Baş redaktor:**
AQİL DADAŞOV
**Təsisçi:**
Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası

Qeydiyyat № 147
Tiraj: 7688
Sifariş: 2066
Redaksiyanın ünvanı:
Bakı - 1005,
Gənclər meydanı 3
Telefonlar: 492-75-55; 492-42-47

"Azərtürk Bank"
Hesab nömrəsi:
AZ08AZRT3809001944
0000132001
Kod: 5:0:7:6:9:9
VÖEN: 1700349431
İndeks: 0271

Qəzet redaksiyanın kompüter mərkəzində yığılmış, səhifələnmiş və "Azərbaycan" Nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur.
e-mail: ulfet-az@mail.ru
**Sərbəst qiymət**